**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**SUMQAYIT DÖVLƏT UNİVERSİTETİNİN NƏZDİNDƏ**
**SUMQAYIT DÖVLƏT TEXNIKI KOLLECI**

# " Ümumi tarix "

***fənnindən mühazirələr***

**Orta İxtisas Təhsil müəssisələrində**
**fənnin tədrisi üçün nəzərdə tutulub**

***SUMQAYIT-2020***

II SEMESTR

**1.Dünya ölkələri XIX əsr- XX əsrlərin əvvəllərində ABŞ,Böyük Britaniya,Fransa,Almaniya, İtaliya və Rusiya. Osmanlı imperiyası. İran,Hindisdan,Cin və Yaponiya**

1800-cü ildə prezident seçilmiş T.Ceffersonun hakimiyyəti dövründə dövlətçilik möhkəmləndirildi, seçki senci ləğv edildi, borclular və məhbuslar üçün daha hümanist qanunlar qəbul edildi. Qərbə doğru hərəkat genişləndirildi. Ingiltərənin Şimali Amerikadakı müstəmləkələrini geri qaytarmaq cəhdi 1812-ci ildə müharibəyə səbəb oldu. Ingiltərə məğlub oldu və 1814-cü ilin dekabrında Kent müqaviləsini imzaladı. Müqaviləyə görə İngiltərə ABŞ-a öz müstəmləkəsi kimi baxmaq iddiasından əl çəkdi. 1812-1814-cü illər müharibəsi ABŞ tarixində ikinci istiqlaliyyət müharibəsi adlanır. xıx əsrin əvvəllərində Avropada aparılan aramsız müharibələr ABŞ-a öz ərazisini genişləndirmək imkanı vermişdi. 1854-cü ildə Respublikaçılılar partiyası yaradıldı. Partiya quldarlıq əlehdarlarının mərkəzinə çevrilmişdi. Partiyanın bazasını fermerlər və şəhərlərin xırda burjuaziyası təşkil edirdilər. 1860-cı il noyabr prezident seçkilərində Respublikaçılar partiyasından Avraam Linkoln (1809-1865) prezident seçildi. Bu quldarların siyasi ağalığının sonu demək idi. Cənublular Linkolnun prezident seçilməsinə qiyamla cavab verdilər. Cənubi Karolina ştatı İttifaqdan çıxdı. 1861-cı ilin fevralında bu ştatlar ayrıca Konfederasiya halında birləşdilər. Cefferson Devisi Konfederasiyanın prezidenti seçdilər. Indi ölkədə iki konqres və iki ordu vardı. 1861-1865-ci illərin vətəndaş müharibəsinin əsas səbəbi sənayecə inkişaf etmiş Şimalla və quldarlıq təsərrüfatının hökm sürdüyü Cənub arasında ziddiyyətlərin kəskinləşməsi idi. Kapitalist Şimalın apardığı müharibə ədalətli müharibə idi. 1865-ci ilin aprelində şimallıların qoşunları Konfederasiyanın paytaxtı Riçmondu tutdular. Beləliklə, müharibə başa çatdırıldı. 1865-ci il aprelin 14-də Vaşinqton teatrlarından birində tamaşa zamanı cənubluların agenti tərəfindən prezident Linkoln öldürüldü. Bu hadisədən sonra Cənubda irtica gücləndi. 1866-cı ildə Konqres zəncilərin vətəndaşlıq hüquqları haqqında qanun qəbul etdi. Konstitusiyaya düzəlişə görə zəncilər ağlarla bərabər mülki və siyasi hüquqlar aldılar. Inqilab nəticəsində quldarlıq ləğv edildi. Aqrar məsələ həll olundu.

1900-1903-cü illərin dünya iqtisadi böhranı ABŞ-dan da yan keçməmişdi. Orta və xırda burjuaziya nümayəndələri böhrandan çıxmaq üçün islahatlar keçirilməsini tələb edirdilər. Reformist xəttin ən görkəmli nümayəndələri Teodor Ruzvelt və Vudro Vilson idilər. 1900-cü ilin seçkilərində Respublikaçılar partiyası qələbə çaldı və U.Makkinli prezident oldu. Lakin Makkinli 1901-ci ilin sentyabrında sui-qəsd nəticəsində öldürüldü. Konstitusiyaya görə vitse prezident Teodor Ruzvelt prezidenti əvəz etdi.

Prezident T.Ruzveltin vaxtında iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi istiqamətində ilk addımlar atılırdı. Bu cəhətdən Konqres tərəfindən qəbul edilən "trestlər əleyhinə" qanunlar mühüm əhəmiyyətə malikdir.

xıx əsrin birinci yarısında İngiltərədə kapitalizmin inkişafı Avropanın başqa ölkələrinə nisbətən sürətlə gedirdi. xıx əsrin ortalarında fabriklər üçün lazım olan mexanizmlər, dəzgah və maşınların özləri də maşınlar vasitəsilə istehsal olunmğa başlayırdı. Bu, artıq sənaye çevrilişinin başa çatması demək idi. Maşınlar əl əməyini, eləcə də iri müəssisələr xırda müəssisələri sıxışdırıb aradan çıxarırdı. Istehsal təmərküzləşirdi. Ingiltərə burjiasiyasının dünya bazarlarında rəqibi yox idi. O dövrdə maşınları yalnız İngiltərə ixrac edirdi. Ingiltərə "dünyanın emalatxanası" rolunu oynayırdı. Nəqliyyatın yeni növü olan parovozlu dəmir yolların çəkilişinə təlabat artmışdı. 1825-ci ildə İngiltərədə dünyada ilk dəmir yolu çəkilmişdi. Dəmir yolların çəkilişi metallurgiyanın inkişafına təkan verdi 1832-ci ildə parlament islahatı keçirildi. "Çürük yerlər"in bir çoxu ləğv edildi, sənaye şəhərləri palataya deputatlar göndərmək hüququ əldə etdilər. Bununla da, sənaye burjuaziyası hakimiyyətdə təmsil olunmağa başladı. 1867-ci ildə parlament islahatı keçirildi. Şəhərdə öz evi olan və ya ayrıca mənzil kirayə edən bütün kişilər səsvermə hüququ əldə etdilər. Kənddə isə ildə 12 funt-sterlinqdən az olmayaraq icarə haqqı ödəyə bilən icarədarlara da bu hüquq verildi. Beləliklə, xırda burjiaziyadan əlavə, fəhlələrin yuxarı təbəqələri də səs hüququ aldılar.

xx əsrin əvvəllərində İngiltərənin siyasi quruluşu əvvəldə olduğu kimi, parlamentli monarxiya olaraq qalırdı. Siyasi həyatda iki partiya-Liberallar və Mühafizəkarlar partiyaları hökmranlıq edirdilər. Hər iki partiyanın özəyini iri burjiaziya təşkil edirdi. xx əsrin əvvəllərində Mühafizəkarlar partiyası sıralarındakı ixtilaflardan istifadə edən liberallar seçkilərdə qalib gəldilər. Liberalların təşkil etdikləri hökumətlərdə böyük nüfuza malik olan D.Lloyd Corc mühüm rol oynayırdı. 1902-ci ilin iyununda sülh müqaviləsi imzalandı. Ingiltərə, bu respublikalarla birlikdə, bütün Cənubi Afrikanın işğalını başa çatdırdı. 1910-cu ildə buradakı respublikalar birləşərək İngiltərə dominionuna çevrilməklə Cənubi Afrika İttifaqını yaratdılar. xx əsrin əvvəllərində İngiltərə-Almaniya ziddiyyətləri kəskinləşmişdi. Bu ziddiyyətlərin əsasını müstəmləkələr uğrunda və hərbi-dəniz sahəsindəki rəqabət təşkil edirdi. 1904-cü ilin aprelində İngiltərə ilə Fransa arasında gizli olaraq "Səmimi saziş" – "Antanta" (fransızca-ürəkdən razıyam deməkdir.

1804-cü ilin mayında Senat Napeleon Bonapartı I Napeleon adı ilə imperator elan etdi. 1805-ci ildə Fransaya qarşı Avropa dövlətlərinin yeni koalisiyası yaradıldı. Bu koalisiyaya İngiltərə, Rusiya, Avstriya və b. daxil oldular. 1805-ci ilin oktyabrında Trafalqar burnu yanında ingilis donanması fransız donanmasını darmadağın etdi. 1805-ci ilin dekabrında Austerlits döyüşündə Rusiya və

Avstriya qüvvələri məğlubiyyətə uğradılar. 1806-cı ildə Fransa qoşunları Prussiya torpaqlarına soxuldular. Qısa müddətdə Prussiyanın taleyi həll edildi və Napeleon Berlinə daxil oldu. Napeleon Berlində Kontinental blokada haqqında dekret imzaladı. Fransa Avropanı özünə tabe etməli idi. Beləliklə, kontinental mühasirənin elan edilməsi Fransanın qəsbkarlıq siyasətində dönüş nöqtəsi oldu. Bu onu Avropa və dünya hökmranlığı uğrunda müharibəyə sövq etdi. 1807-ci ilin iyununda isə Fridland yaxınlığında fransızlarla döyüşdə rus qoşunları məğlubiyyətə uğradılar. Iyul ayında

1815-ci ilin iyununda Vaterloo yaxınlığında onun ordusu müttəfiq qoşunları tərəfindən tamamilə darmadağın edildi. Napeleon hakimiyyətdən devrildi, əsir kimi Müqəddəs Yelena adasına göndərildi. 1852-ci il dekabrın 2-də Fransada monarxiya bərpa edildi. I Napeleonun qardaşı oğlu Lui Napeleon III Napeleon adı ilə imperator elan olundu. Ikinci imperiya adlandırılan imperiya yaradıldı. Burjuaziya imperatoru müdafiə etdi. III Napeleonun hakimiyyəti illərində burjuaziyanın mövqeyi daha da möhkəmləndi. Sənaye və ticarət inkişaf edirdi. Sənaye çevrilişi başa çatmışdı. III Napoleon 1864-cü ildə tətillərin qadağan edilməsi haqqında qanunu ləğv etməyə məcbur oldu. 1866-cı ildə Fransa-Prussiya münasibətləri kəskinləşdi. Prussiyanın dağınıq alman dövlətlərini birləşdirmək cəhdi əslində müsbət hadisə idi. Lakin Fransa vahid və qüdrətli Almaniyanın yaradılmasını istəmirdi. Prussiya da öz növbəsində Fransanın zəngin vilayətlərini ələ keçirmək arzusunda idi. Fransa-Prussiya müharibəsi 1870-ci il iyulun 19-da başladı. Ilk döyüşlərdən alman orduları təşəbbüsü ələ aldılar. Mets qalasına sığınan fransızlar Prussiya ordusu tərəfindən mühasirəyə alındı. III Napoleon başda olmaqla mühasirədə olanlara köməyə gedən qüvvələr sentyabrın 2-də Sedan ətrafında mühasirəyə alınaraq imperatorla birlikdə düşmənə təslim oldu. Sedan fəlakəti Paris əhalisini küçələrə çıxartdı. Sentyabrın 4-də III Napoleon taxtdan uzaqlaşdırıldı. Fransa respublika elan edildi. Ikinci imperiyaya son qoyuldu.

Kapitalın ixracına görə Fransa dünyada ikinci yeri tuturdu. Fransa öz kapitalını borc kapitalı şəklində ixrac edirdi. Dövlət borcu formasında ixrac olunan kapital fransız kapitalistlərinə görünməmiş mənfəət gətirirdi. 1901-ci ildə formalaşmış sol Radikal partiyası xırda burjuaziya və orta burjuaziyanın bir hissəsinin arasında malik idi. Bu partiya geniş siyasi və sosial islahatlar proqramı ilə çıxış edirdi. 1902-ci ildə keçirilən seçkilərdə Radikallar partiyası Deputatlar palatasında ən çox yer aldılar. Bu partiya sosialistlərin bir hissəsi ilə "Sol blok" yaratdı və deputatlar palatasında əksəriyyət əldə etdi. Radikal hökümət diqqətini kilsə icma birləşmələri haqqında qanunun həyata keçirilməsi üzərində cəmləşdirdi. Onları Roma papası müdafiə edirdi. 1904-cü ildə E.Komb hökuməti Vatikanla diplomatik münasibətləri kəsdi və kilsənin dövlətdən ayrılması haqqında qanun layihəsi hazırladı. 1906-cı ildə keçirilən parlament seçkilərində radikallar yenə də Deputatlar palatasında çoxluq qazandılar.

J.Klemansonun başçılığı ilə hökumət təşkil etdilər. Klemansonun yaratdığı "möhkəm hakimiyyət" iri kapitalın imtiyazlarını ləğv etməyə deyil, məhdudlaşdırmağa çalışmalı idi. əgər əvvəllər Klemanso sosialistlərlə əlaqə yaratmağa çalışırdısa, hakimiyyətə gəldikdən sonra onların əleyhinə çıxmağa başlamışdı. Bu dövrdə ingilis-alman, fransız-alman ziddiyyətlərinin kəskinləşməsi köhnə rəqiblər olan Fransa və İngiltərənin yaxınlaşması üçün əlverişli şərait yaratmışdı

1806-cı ildə Napoleon Almaniyanı işğal edərək Müqəddəs Roma imperiyasına son qoydu. Napoleon işğallarının ardından keçirilən Vyana Konfransında Alman Dövlətlərinin Konfederasiyasının yaradılması haqqında qərar qəbul olundu. Bu konfederasiyaya 39 dövlət daxil idi. Konfederasiya dövründə alman milliyətçiliyi ideologiyası xüsusilə gənc intellektual insanlar arasında geniş yayılmağa başladı. Məhz həmin dövrdə Almaniyanın simvolları kimi qırmızı, qızılı və qara rənglərdən istifadə olunmağa başlandı, bu rənglər sonradan Almaniya bayrağının rənglərinə çevrildilər. 1862-ci ildə kral Otto fon Bismarkı Prussiyanın yeni baş naziri elan edir. Bismark 1864-cü ildə Danimarkaya qarşı uğurlu müharibə aparır. Bundan dərhal sonra Bismark Avstriyaya qarşı hücuma keçir. 1866-cı ildə baş verən Avstriya-Prussiya müharibəsində prussiyalılar qətiyyətlə qələbə qazanaraq Avstriyanı konfederasiyadan kənarlaşdılar. Beləliklə Alman Dövlətlərinin Konfederasiyası buraxılır. Onun əvəzində isə Prussiyanın başçılıq etdiyi Şimali Alman İttifaqı (*Norddeutscher Bund*) yaranır. 1870-ci ildə Fransa-Prussiya müharibəsi başlayır. Bu müharibədə Fransa darmadağın olunur. 1871-ci ilin yanvarın 18-də Versal Sarayında Almaniya İmperiyasının qurulduğu elan olunur. İlk kansler Otto fon Bismark olur. Beləliklə bütün alman dövlətləri (Avstriya istisna olmaqla) vahid dövlətdə birləşdilər. İmperiyanın paytaxtı Berlin şəhəri elan olunur.

xıx əsrin əvvəllərində Rusiya ictimai-iqtisadi inkişaf baxımından Qərbi Avropa ölkələrindən xeyli geridə idi. 1801-ci ildə Rusiyada saray çevrilişi baş verdi. I Pavel öldürüldü və onun oğlu I Aleksandr taxta çıxarıldı (1801-1825). Kəndli məsələsinin kəskinliyini zəiflətmək üçün 1803-cü ilin fevralında "azad taxılçılar" haqqında fərman verildi. Fərmana görə mülkədarlara icazə verilirdi ki, öz arzularına görə pul alıb kəndliləri torpaqla birlikdə azad etsinlər. 1810-cu ildə yaradılan Dövlət şurası ali idarəetmə orqanı kimi fəaliyyət göstərsə də, çarın yanında məşvərətçi orqan idi. xıx əsrin əvvəllərində Rusiyanın beynəlxalq vəziyyəti son dərəcə mürəkkəb idi. Tilzit sülh müqaviləsindən sonra da Rusiya müstəqil xarici siyasət yeritməkdə davam edirdi. Napoleon üzərində qələbədən sonra Qərbi Avropa həyatı ilə tanış olmuş bəzi mütərəqqi fikirli rus zabitləri Rusiyada dəyişikliklər aparmaq uğrunda mübarizəyə başladılar. Bu zabitlər gizli "Nicat ittifaqı" və "Səadət ittifaqı" adlı cəmiyyətlər yaratdılar. 1825-ci il

dekabrın 14-də hərbçilərin üsyanı baş verdi. Bu üsyan tarixə dekabristlər üsyanı kimi daxil oldu. 1861-ci il fevralın 19-da II Aleksandr mülkədar kəndlilərinin təhkimçilik hüququnun ləğv edilməsi haqqında "Əsasnamə" imzaladı. Təhkimli kəndlilər şəxsi asılılıqdan azad edilirdilər. Kəndlilərə daşınan və daşınmaz əmlaka malik olmaq, məhkəmədə öz adından çıxış etmək, qanunlar və adətlər üzrə vərəsə olmaq hüququ verilirdi.

. xx əsrin əvvəllərində Rusiyada kapitalizmin inkişafı xeyli sürətlənmişdi. Rusiyada sindikatlar sayca üstünlüyə malik idilər. Inhisarlarla sıx əlaqədə olan iri banklar ölkədə həlledici rol oynamağa başlamışdılar. 1904-1905-ci illərdə Rusiya-Yaponiya müharibəsində rus ordusunun ağır məğlubiyyəti ölkədə mövcud quruluşa qarşı narazılığı kəskin surətdə artırmışdı. Bu narazılıq özünün ən kəskin təzahürünü 1905-1907-ci illərdə baş vermiş burjia-demokratik inqilabında tapdı. İnqilabın qarşısında mütləqiyyətin devrilməsi və respublika elan edilməsi, mülkədar torpaq sahibliyinin ləğvi, demokratik hüquq və azadlıqların elan edilməsi, milli zülmün ləğvi və xalqlara öz müqəddəratını təyin etmə hüququnun verilməsi kimi mühüm vəzifələr dururdu.

Feodal-mütləqiyyət zülümü və xarici kapitaldan asılılığın güclənməsi Osmanlı burjuaziyasının formalaşmasına təkan verirdi. Ziyalılar və tələbələr öz fəaliyyətlərini vahid cəbhədə birləşdirmək məqsədilə 1865-ci ildə "Osmanlı maarif cəmiyyəti" adlı təşkilat yaratdılar. Görkəmli alim İbrahim Şinasi, yazıçı və dramaturq Namiq Kamalın yaratdıqları bu təşkilatın üzvləri özlərini "yeni osmanlılar" adlandırdılar. Həmin ildə İstanbulda gizli "Yeni Osmanlılar Cəmiyyəti" təşkil edildi. xıx əsrin 70-ci illərinin əvvəlində Osmanlı imperiyası yenidən dərin iqtisadi və siyasi böhrana düçar oldu. 1876-cı ilin mayında baş vermiş izdihamlı mitinq qarşısında Sultan Əbdüləziz Güzəştə getməli oldu və "Yeni osmanlılar"ın liderlərindən biri Midhət paşa yeni yaradılmış hökümət kabinetinin tərkibinə daxil edildi.1876-cı ilin mayında II Əbdülhəmid hakimiyyətə gətirildi. Tezliklə Midhət paşa baş vəzir təyin edildi. Ölkənin müqəddəratı həll edildiyi belə bir vaxtda II Əbdülhəmid Midhət paşanın hazırladığı konstitusiyaya layihəsinin qəbul edilməsinə dair fərman imzaladı. Midhət konstitusiyası ilə Osmanlı imperiyası konstitusiyalı monarxiya elan edildi. İmperiya ərazisində yaşayan bütün əhali osmanlı adlanır və əhalinin hamısı, etnik və dini mənsubiyyətindən asılı olmayaraq qanun qarşısında bərabər elan edilirdi. 1877-ci ilin martında parlamentdə ilk seçkilər keçirildi. Deputatların böyük əksəriyyətini iri mülkədarlar və ruhanilər təşkil edirdilər. 1877-1878-ci illərədək Rusiya Osmanlı ölkənin iqtisadi vəziyyətini daha da ağırlaşdırıdı və onun beynəlxalq nüfuzuna ciddi zərbə endirirdi.

**2.XIX əsr -XX əsrin əvvəllərində dövlətlərarası münasibətlər.Birinci Dünya müharibəsi.Mədəniyyət.**

XIX əsrin sonu – XX əsrin əvvəllərində Avropanın böyük dövlətləri arasında rəqabət kəskinləşdi. 1873–1895-ci illərin iqtisadi böhranı satış bazarları və xammal ehtiyacını zəruri problemə çevirdi. Müstəmləkələr sahəsində rəqabət daha güclü idi. Böyük dövlətlərin hamısı öz müstəmləkə ərazilərini genişləndirməyə çalışırdılar. Bu isə Avropa dövlətləri arasında mənafelərin toqquşmasına və ziddiyyətlərin kəskinləşməsinə səbəb olurdu. İngiltərə və Rusiya hələ XIX əsrin ikinci yarısından etibarən Əfqanıstan uğrunda mübarizəyə başlamışdılar. İngilislər Hindistanın sərhədlərinin təhlükəsizliyini təmin etməyə çalışır, Rusiya isə Hind okeanına yaxınlaşmaq istəyirdi. Afrikada Fransa və İngiltərə mübarizə aparırdı. Rəqabət mübarizəsi iqtisadi və hərbi sahələrdə də gedirdi. Bu amillər dövlətlərarası münasibətlərdə gərginliyi artırır və yeni ittifaq sistemlərinin yaranmasına şərait yaradırdı. Almaniyanın güclənməsi qitədə heç bir dövlətin güclənməsini istəməyən İngiltərənin də ənənəvi xarici siyasətinə zidd idi.
İngiltərə sənayesi Almaniya sənayesi ilə rəqabətdə uduzurdu. Həmçinin Almaniyanın öz hərbi dəniz donanmasını gücləndirməsi dənizlərdə hakim olan İngiltərəni narahat edirdi.
Bütün bu amillər hələ XIX əsrin sonlarına qədər düşmən olan dövlətləri: İngiltərə, Fransa və Rusiyanı yaxınlaşdırdı. Bu, XIX əsrdə İngiltərənin Baş naziri və Xarici İşlər naziri olmuş Henri Palmerstonun "İngiltərənin daimi dostu və düşməni yoxdur, daimi mənafeyi var" prinsipinin sübutu idi

Bu dövrdə İngiltərə münaqişələrdə iştirak etməmək üçün təcridçilik siyasəti yürüdürdü. İngiltərənin Avropadakı tarazlığa önəm verməsi də Bismarkı bu tarazlığı pozmamağa məcbur edirdi.
Bismark tarazlığı qorumaq üçün müxtəlif dövlətlərlə ittifaqlar qururdu. 1879-cu ildə Avstriya-Macarıstanla müqavilə bağlandı. 1882-ci ildə İtaliya da bu ittifaqa qoşuldu və "Üçlər ittifaqı" yarandı. Müxtəlif mənafeləri olan dövlətlərin bir ittifaqda birləşdirilməsi Bismarkın diplomatik ustalığını göstərirdi. Onun imperatorla fikir ayrılığına görə 1890-cı ildə istefasından sonra Almaniya dünya miqyasında imperialist siyasətini gücləndirdi. Bu isə onun rəqibləri olan Fransa, Rusiya və İngiltərənin yaxınlaşmasına səbəb oldu. 1890-cı illərin birinci yarısında Fransa və Rusiya ittifaq müqaviləsi imzaladı. Bununla da, Bismark tərəfindən həyata keçirilən Fransanın təcridedilmə siyasətinə son qoyuldu. XX əsrin əvvəllərində Fransa ilə Böyük Britaniya arasında yaxınlaşma başladı. Almaniyanın güclənməsi bu yaxınlaşmanın əsas səbəbi idi. Fransa və İngiltərə müstəmləkələrlə bağlı ziddiyyətlərdə razılığa gəldi və 1904-cü ildə Antanta* adlanan saziş imzaladı. Bu saziş Fransanın vasitəçiliyi ilə İngiltərə və Rusiyanın barışmasına da şərait yaratdı. 1907-ci ildə İngiltərə və Rusiya arasında

müqavilənin bağlanması ilə Antanta ittifaqının yaranması başa çatdı. Beləliklə, Avropa bir-birinə düşmən olan iki bloka bölündü.

Beynəlxalq siyasi şəraitin olduqca kəskinləşməsi dünya müharibəsi təhlükəsinin yaxınlaşdığından xəbər verirdi. Onun başlanması üçün əsas bəhanə 1914-cü il iyunun 15(28)-də Avstriya-Macarıstan taxt-tacının varisi Frans Ferdinandın Bosniyanın paytaxtı Sarayevo şəhərində "Gənc Bosniya" millətçi təşkilatının üzvü Qavrilo Prinsip tərəfindən qətlə yetirilməsi oldu. Almaniya kayzeri II Vilhelmin dəstəyi ilə Avstriya-Macarıstan , iyulun 10(23)-də Serbiyaya, onun daxili işlərinə qarışmaq hüququ verilməsi tələbilə ultimatum verdi. Serbiya tərəfindən ultimatumun qəbul olunması onun milli suverenlikdən imtina etməsi demək olardı. Serbiyanın ultimatumda göstərilən bir sıra tələbləri yerinə yetirməyə razılıq verməsinə baxmayaraq Avstriya-Macarıstan 1914-cü il iyulun 15(28)-də ona müharibə elan etdi. Bu, Balkanlarda böyük marağı olan Antanta dövlətlərini narahat etməyə bilməzdi. Buna görə də ertəsi gün Rusiya ölkədə qismən səfərbərlik elan etdi. İyulun 19(avqustun 1də)-da Almaniya Rusiyaya, iyulun 21(avqustun 3-də)-də onun müttəfiqi Fransaya müharibə elan etdi. İyulun 22(avqustun 4-də)də Almaniya Belçikanın ərazisindən Fransaya hücum etmək məqsədilə onun bitərəfliyini pozdu. Bunu görən İngiltərə iyulun 23(avqustun 5-də)-də Almaniyaya müharibə elan etdi. Bir az sonra Almaniya və Avstriya-Macarıstan tərəfdən Türkiyə və Bolqarıstan müharibəyə girdilər. 1917-ci ilin aprelində Antanta ölkələri tərəfdən ABŞ müharibəyə daxil oldu. Beləliklə, 1914-cü il avqustun l-də ümumən 1,5 milyard nəfər əhalisi olan (bu planet əhalisinin 87%-i demək idi) 38 ölkənin iştirak etdiyi birinci dünya müharibəsi başlandı. Müharibə dövründə 73,5 milyon nəfər adam hərbi səfərbərliyə alınmışdı. Öz səbəb və xarakterinə görə bu müharibə Avropa qitəsində hökmranlıq, bölünmüş dünyanı yenidən bölüşdürmək, müstəmləkələri, nüfuz və kapital qoyuluşu dairələrini yenidən paylaşdırmaq, ucuz xammal bazarları və öz mallarını satmaq üçün bazarlar əldə etmək uğrunda iki dövlətlər qrupu -Üçlər ittifaqı və Antanta arasında hərbi münaqişə idi. Müharibə XIX əsrdə və XX əsrin əvvəllərində kapitalist dünyasının inkişafının nəticəsi idi. O, elə bir dönüş dövründə baş vermişdi ki, artıq bu vaxt azad sahibkarlıq kapitalizminin klassik nümunəsinin imkanları tükənmişdi. Cəmiyyət həyatının iqtisadi, sosial, mənəvi sahələrini əhatə edən böhran əlamətləri özünü biruzə verməyə başlamışdı.

Almaniya 1914-cü il avqustun 2-də Lüksemburqa hücum etdi. İki günə Belçika ərazisinə daxil oldu. 1914-cü il hərbi kampaniyasında alman komandanlığının başlıca məqsədi Fransanı diz çökdürmək idi. "Şliffen planına" (general Şliffenin adı ilə bağlı idi) əsasən alman orduları sözügedən bitərəf ölkələrin müdafiə olunmayan sərhədlərindən keçərək Paris istiqamətində irəliləməli, Fransa

ordusunun çox hissəsini mühasirəyə almalı və onu təslim olmağa məcbur etməli idilər. Avqustun 3-də bu plan həyata keçirilməyə başladı. Alman hərbi hissələri Belçikanı işğal edib Fransa ərazisinə daxil oldular. Bir aydan sonra onlar Paris ətrafına çatdılar. Fransızların Elzas və Lotaringiyada cavab hücumları uğursuzluğa düçar oldu.
Almaniyanın Şərq cəbhəsində uğurları Bolqarıstanı Üçlər ittifaqına qoşulmağa təhrik etdi. Yarım milyonluq orduya malik Bolqarıstan 1915-ci ilin oktyabrında Üçlər ittifaqına girdi. Bolqarıstanın və Avstriya-Macarıstanın orduları serb hərbi hissələrini darmadağın etdilər. Almaniya psixoloji üstünlük qazanmaq məqsədilə 1915-ci ildə kimyəvi silahdan istifadə etdi. O, 1915-ci il aprelin 22-də tarixdə ilk dəfə İpra ətrafında ingilis mövqelərinə zəhərli xlor qazı buraxdı. 15 min nəfər zəhərləndi. Onlardan 5 mini tələf oldu. 1915-ci ildəki ziddiyyətli hadisələr, Avstriya-Macarıstanla fikir ayrılıqları və Antantanın Tirolu, Triyesti, hətta Adriatikin şərq sahillərini İtaliyaya vermək vədləri onun Üçlər ittifaqını tərk etməsinə gətirib çıxardı. 1915-ci il aprelin 26-da İtaliya Üçlər ittifaqından çıxdı, bir aydan sonra isə o, Antanta tərəfdən müharibəyə başladı. İtaliyanın Antanta tərəfinə keçməsi, Bolqarıstanın və Osmanlı imperiyasının Almaniya və Avstriya-Macarıstanla ittifaqa girməsi ilə Üçlər ittifaqı Dördlər ittifaqma çevrildi. Beləliklə, 1915-ci il hərbi kompaniyası nəinki cəbhələrdə vəziyyəti səhmana saldı, hətta Almaniya koalisiyasının strateji təşəbbüsü ələ alması ilə nəticələndi. Müharibə hər iki hərbi bloka daxil olan ölkələrin hərbi və maddi ehtiyyatlarını tükəndirmişdi. Daxili ziddiyyətlər kəskinləşmiş və inqilabi hərəkat genişlənmişdi. Sülh danışıqlarına başlamaq cəhdləri də heç bir nəticə vermədi. 1917-ci ilin əvvəlindən etibarən Rusiyanı dərin iqtisadi böhran bürümüşdü. Rusiya hərbi məğlubiyyətləri və təsərrüfat dağınıqlığı müxalif qüvvələrin fəaliyyətini canlandırmışdı. 1917-ci ilin fevralında Rusiyada baş vermiş burjua-demokratik inqilabı nəticəsində mütləqiyyət devrilmiş və Müvəqqəti hökumət təşkil edilmişdi. Ferval inqilabı ABŞ-ın hakim dairələrini də narahat edirdi. Ona görə ABŞ 1917-ci ilin aprelində Almaniyaya qarşı müharibəyə girdi. ABŞ bu addımda müharibənin uğurlarından faydalanmaq imkanları əldə edirdi. Yaxınlaşmaqda olan qələbənin bəhrələrini başqası ilə bölüşmək istəməyən Fransa və İngiltərənin hakim dairələri ABŞ qoşunları Avropaya gələnə qədər Almaniyanı məğlubiyyətə uğratmaq istəyirdilər. Lakin Almaniya və Avstriya-Macarıstan qoşunları 1917-ci ilin oktyabrında Kaporetta yaxınlığında İtaliya ordusunun xeyli hissəsini məhv etdilər. 1918-ci ilin martında Brest-Litovskidə Rusiya ilə Almaniya və onun müttəfiqləri ("Dördlər ittifaqı") arasında sülh müqaviləsi imzalandı. Brest-Litovski sülhünə görə Rusiya cəbhə xəttinə qədərki əraziləri itirirdi, Qars, Ərdəhan və Batum Osmanlı dövlətinə qaytarılırdı. Həmçinin Rusiya Ukrayna Mərkəzi Radasının müstəqilliyini tanımağa məcbur

oldu. Rusiyanın müharibədən çıxması Almaniyanın vəziyyətini müəyyən qədər yüngülləşdirdi.

918-ci ilin mayında Rumınıya “Dördlər ittifaqı” bloku ilə sülh müqaviləsi bağladı. Almaniya və onun müttəfiqləri, demək olar ki, bütün sahələrdə böhraniçərisində idilər. Avqust ayında Fransa, İngiltərə və ABŞ qoşunları bir gündə almanların 16 diviziyasını darmadağın etdilər. Sentyabrın sonunda isə bolqar və Osmanlı orduları Makedoniyada ağır məğlubiyyətə uğradıqdan sonra Bolqarıstan müharibədən çıxdı. Avstriya-Macarıstan artıq müqaviməti dayandırmışdı. 1918-ci il oktyabrın əvvəllərində alman hökuməti ABŞ prezidenti Vilson tərəfindən bir qədər əvvəl irəli sürülmüş “14 maddə” tələbi ilə razı olduğunu bildirdi və sülh prosesini sürətləndirməyi xahiş etdi. Fələstin və Suriyada aparılan döyüşlərdə məğlub edildikdən sonra, 1918-ci ilin oktyabrında Mudros adlanan yerdə Osmanlı imperiyası təslim olmaq aktına imza atdı. Avstriya-Macarıstan imperiyası milli ziddiyyətlərin kəskinləşməsi nəticəsində və cəbhələrdə aldığı zərbələrdən dağılmağa başlamışdı. Noyabrın əvvəlində Avstriya-Macarıstan komandanlığı təslim olma sənədinə qol çəkdi. Bu hadisə Almaniya ilə “Atlanta” arasında aparılan sülh danışıqlarını sürətləndirdi. 1918-ci il noyabr 9-da Almaniyada inqilab nəticəsində monarxiya devrildi. Respublika yaradıldı. 1918-ci il noyabrın 11-də fransız marşalı Foşun Kompyen meşəsindəki vaqon qərargahında Almaniya ilə qalib dövlətlər arasında barışıq sazişi imzalandı. Bütün cəbhələrdə döyüş əməliyyatları dayandırıldı. Birinci Dünya müharibəsi qurtardı.

## 3.Versal-Vaşinqton sistemi. ABŞ,BöyükBritaniya,Fransa, Almaniya,İtaliya və SSRİ

. Birinci Dünya müharibəsindən sonra dövlətlərarası münasibətləri qaydaya salmaq üçün 1919-cu il yanvarın 18-də Parisdə sülh konfransı toplandı. Konfrans öz işini iyunun 28-ə kimi davam etdirdi. Konfransda 27 ölkənin nümayəndə heyəti iştirak etsə də, aparıcı rolu “Böyük üçlük” – ABŞ, Böyük Britaniya və Fransa oynayırdı. Məğlub ölkələr və Sovet Rusiyası konfransa dəvət olunmamışdılar. Konfransın məqsədi Almaniya və digər məğlub ölkələrlə sülh müqavilələrini hazırlamaq idi. Müqavilələrin əsasını, hələ 1918-ci il yanvarın 8-də ABŞ prezidenti V.Vilsonun konqresə göndərdiyi “14 maddə”si təşkil edirdi. 1919-cu il iyunun 28-də Parisin Versal sarayında Almaniya ilə sülh müqaviləsi imzalandı. Müqavilədə Almaniya müharibəni törətməkdə təqsirkar olduğunu və onun nəticələri üçün müttəfiqləri ilə bərabər məsuliyyət daşıdığını etiraf etdi. Almaniyanın qərb əraziləri 15 il müddətinə müttəfiq qoşunlarının işğal zonası elan olundu. Ona daimi böyük ordu saxlamaq qadağan edildi. Baş qərargah buraxıldı. Ərazisindəki alman mülklərinin Yaponiyaya verilməsindən narazı qalan Çin müqaviləni imzalamadı. Millətlər cəmiyyətinə daxil olmaq istəməyən ABŞ senatı da müqaviləni ratifikasiya (paraflama) etmədi. Versal

sülh müqaviləsi müttəfiqlərlə Avstriya arasında Sen-Jermen (1919 sentyabr) Bolqarıstanla Neyi (1919 noyabr), Macarıstanla Trianon (1920 iyun), Osmanlı imperiyası ilə Sevr (1920 avqust) müqavilələrinin imzalanması ilə tamamlandı. Sülh müqavilələri ümumilikdə Versal sistemini təşkil edirdi. Versal sistemdə ən ağır və alçaldıcı müqavilələrdən biri Osmanlı imperiyası ilə bağlanmış Sevr sülh müqaviləsi idi. Bu müqaviləyə görə Osmanlı imperiyası ərazisinin 4/5 hissısini itirirdi. Lakin M.K.Atatürkün başçılığı ilə başlanmış istiqlal müharibəsinin qələbəsi müqavilənin şərtlərinin tamamilə həyata keçirilməsinə imkan vermədi. Lozanna konfransında (1923) Türkiyə ilə münasibətlər tənzimləndi və bu ölkənin yeni sərhədləri beynəlxalq birlik tərəfindən tanındı. Versal sistemini tamamlamaq məqsədilə 1921-ci ilin sonu – 1922-ci ilin əvvəlində Vaşinqtonda beynəlxalq konfrans çağırıldı. Konfransda yeni dünya siyasətinin müəyyən olunmasından kənarda qalmaq istəməyən ABŞ daha çox fəallıq nümayiş etdiridi. Konfransda bağlanmış əvvəlki müqavilələrə yenidən baxmaq və dəqiqləşdirməklə əlaqədar bir sıra qərarlar qəbul olundu. Birləşmiş Ştatlar dörd dövlətin – ABŞ, Böyük Britaniyaya, Fransa və İtaliyanın Sakit okean adalarındakı mülklərini birgə qorumaq barədə müqavilənin bağlanmasına nail oldu. Çin üzrə doqquz dövlət müqaviləsi imzalandı. Müqaqviləyə əsasən Çinə ABŞ-ın "açıq qapı" prinsipi tətbiq olundu. Konfransda Yaponiya tərəfindən Şandun yarımadasının Çinə qaytarılması məsələsi də nəzərdən keçirildi. Paris və Vaşinqton konfranslarının qərarları Versal-Vaşinqton sisteminin əsaslarını təşkil etdi. 20-ci illərdə qalib dövlətlər Versal-Vaşinqton sistemini möhkəmləndirmək, ona düzəlişlər etmək üçün cəhdlər göstərdilər.

Böyük Britaniya müharibədən qalib çıxmış ölkələrdən biri idi. Buna baxmayaraq o, müharibə illərində milli sərvətlərinin üçdə bir hissəsini itirmişdi. 1924-cü ilin yanvarında başda Ramsey Maqdonald olmaqla leyboristlər hakimiyyətə gəldilər. Bu, leyboristlərin Böyük Britaniya tarixində ilk hökuməti idi. Birinci leyborist hökuməti bir sıra sosial tədbirlər həyata keçirdi. Lakin seçkiqabağı vədlərin çoxunun yerinə yetirilməməsi hökumətə qarşı narazılığı artırdı. 1924-cü ilin oktyabrında keçirilən seçkilərdə leyboristlər məğlubiyyətə uğradılar. Qələbə qazanmış mühafizəkarlar Stenli Bolduin başda olmaqla yeni hökumət təşkil etdilər. Sosial-iqtisadi və siyasi sabitlik dövrü olmasına baxmayaraq, Böyük Britaniyanın kömürçıxarma sənayesi dərin böhran keçirirdi. Fəhlələri lokautla hədələyən kömür sənayeçilərinə qarşı 1926-cı il may ayının 4-də bütün ölkədə şaxtaçıların ümumi tətili başlandı. Qarşıdurmanın ən yüksək nöqtəsi 1927-ci ildə "Sənayedə münaqişələr və tred-yunionlar haqqında" qanunun qəbul edilməsi oldu. 1929-cu ildə keçirilən növbəti parlament seçkilərində onlar məğlubiyyətə uğradılar. Leyboristlər R.Makdonald başda olmaqla ikinci leyborist hökumətini təşkil etdilər. Müharibə nəticəsində Fransa

iqtisadiyyatı çox ağır vəziyyətə düşmüşdü. Ölkə maliyyə cəhətdən ABŞ və Böyük Britaniyadan asılı idi

FRANSA. 1919-cu il parlament seçkiləri ərəfəsində R.Puankare, A.Milyeran və A.Brianın başçılığı ilə 6 respublikaçı partiya tərəfindən yaradılan Milli blok daxili böhranı aradan qaldırmağa səy göstərdi. 1924-cü il seçkilərində E.Errionun başçılıq etdiyi Sol blok qələbə çaldı. Lakin Sol blok sabit hakimiyyət yarada bilmədi. Errionun ikinci hökumətini Puankarenin başçılıq etdiyi Milli birlik hökuməti əvəz etdi. Hökumət iqtisadi çətinlikləri aradan qaldırmaq məqsədilə bir sıra tədbirlər həyata keçirdi. Vergilərin artırılması, dövlət məmurlarının əmək haqlarının azaldılması sayəsində frankın sabitləşməsi təmin edildi.

FRANSA Birinci Dünya müharibəsindən məğlub və iqtisadiyyatı dağıdılmış vəziyyətdə çıxmış Almaniya öz qəddini düzəltməyə başladı. Reyn təminat Paktı da Almaniyanın dirçəlməsinə kömək etdi. Bu fakt müharibədən sonra Almaniyanın bərabərhüquqlu tərəfkeş kimi tanınmsında ilk addım idi. Tarixdə 1924-1929-cu illər Veymar Respublikasının "qızıl əsri" adlandırılır. Almaniyanın bu dövr tarixinin ən faciəli hadisələrdən biri Nasist partiyasının meydana çıxması və hakimiyyətə gəlməsidir. Bu partiya, 1919-cu ilin yanvarında yaradıldı. O, əvvəl Almaniya fəhlə partiyası, 1920-ci ildən "Almaniya nasional-sosialist fəhlə partiyası" adlanmışdır. Bu partiyanın görkəmli lideri (füreri) Adolf Hitler oldu. 1923-cü ilin noyabrında nasistlər "pivə" qiyamına təşkil etməyə cəhd göstərdilər. Lakin qiyam baş tutmadı. A.Hitler 5 il həbsə məhkum edildi. O, cəmi 7 ay həbsxanada qaldı. Hitler həbsxanada olarkən özünün "Mayn Kampft" ("Mənim mübarizəm") kitabını yazır.

ABŞ. Birinci Dünya müharibəsinin qalib dövlətlərindən biri də Amerika Birləşmiş Ştatları idi. Müharibə onun üçün mənfəət işi, "böyük biznes" işi olmuşdu. ABŞ kapital ixrac edən ölkədən, onu ixrac edən, borc alan ölkədən borc verən ölkəyə çevrilmişdi. 1920-ci il prezident seçkilərində müxalifətdə olan respublikaçı U.Hardinq prezident seçildi. Onun hakimiyyəti sabitlik dövrünə təsadüf edir. ABŞ 1923-cü ildə sənaye istehsalının göstəricilərini müharibədən əvvəlki səviyyəyə çatdırdı və onu 42% ötüb keçdi. Fordun zavodlarında ilk dəfə konveyer iş sisteminə keçildi, xronometrajdan istifadə olunmağa başlandı. 1923-cü ilin avqustunda prezident U.Hardinq Alyaskaya səyahəti zamanı vəfat etdi. 1924-cü ilin noyabrında Respublikaçılar partiyasından Kalvin Kulic prezident seçildi. Kulicin "Amerikanın işi biznesdir" şüarı 1924-1928-ci illərdə ABŞ-ın iqtisadi inkişafına güclü təkan verdi. Prezident Kulic dövründə ciddi tədbirlərdən biri mühacirət (immiqrasiya) qanunlarında dəyişikliklər edilməsi olmuşdu. Şərqi Asiya ölkələrindən mühacirət qadağan olunmuş, digər ölkələrdən isə mühacirət edənlərə məhdudiyyət qoyulmuşdu. Bu da Avropadan

ABŞ-a azad mühacir axınının qarşısını almışdı. 1928-ci il seçkilərində sənayeçi milyoner Herbert Huver prezident seçildi. Onun prezidentlik illəri sabitləşmənin sona yetməsi, dünya iqtisadi böhranının başlanması dövrünə təsadüf edir.

## 4.Türkiyə və İran.Asiya ölkələri(Ərəb ölkələri, Hindistan,Çin,Yaponiya.) XX əsrin 20-30 -cu illərində dövlətlərarası münasibətlər

**1920-ci ilin aprelində** Ankarada yeni parlamentin – **Türkiyə Böyük Millət Məclisinin (TBMM)** çağırılması oldu. Özünü ölkədə yeganə qanuni hökumət elan edən TBMM "əsas təşkilatlar haqqında" qanun qəbul etdi. Bu qanun 1924-cü ilədək Türkiyənin müvəqqəti Konstitusiyası oldu. Qanunda deyilirdi ki, ali hakimiyyət məhdudiyyətsiz şəkildə millətə məxsusdur. Bütün qanunverici və icraedici hakimiyyət TBMM-ə və parlamentin seçdiyi hökumətə verilir.

"Kamalçılar"ın qanunvericilik fəaliyyəti türk xalqının azadlıq mübarizəsinin yüksəlişi ilə müşayiət olunurdu. Buna görə də Antanta dövlətləri bu mübarizəni yatırmaq üçün müxtəlif vasitələrə əl atırdılar. 1920-ci ilin martında müttəfiqlər İstanbulu tutub Sivas konqresinin qərarını təkrarlayaraq **"Milli and"** qəbul etmiş deputatlar palatasını qovdular. Sonra onlar bu vaxta qədər Şərqi Frakiyanı tutmuş və Qərbi Anadolunun böyük ərazisini ələ keçirmiş nizami yunan dəstələrini "kamalçılar"a qarşı göndərdilər. Bununla türklərin silahlı müharibəsinə son qoyulacağını düşünən Antanta liderləri 1920-ci ilin avqustunda sultana **Sevr müqaviləsini** imzalatdırdılar. Müqavilənin şərtlərinə görə, Osmanlı dövləti İngiltərə, Fransa, İtaliya və Yunanıstan arasında bölüşdürülürdü. Ölkənin şimal-şərqi erməni dövlətinə keçməli, cənub-şərqində isə ingilislərin protektoratlığı altında kürd dövləti yaradılmalı idi. Azadlıq mübarizəsindən sonra ölkənin iqtisadi cəhətdən müstəqilliyinə yönəlmiş bir sıra addımlar atıldı. Dövlət xaricilərə məxsus bütün sənaye müəssisələrini və dəmir yollarının, demək olar ki, hamısını satın aldı. Mərkəzi bank yaradıldı. **1923-cü ilin** oktyabrında paytaxt İstanbuldan Ankaraya köçürüldü. Səltənət və xəlifəlik ləğv edildi, Osmanlı sülaləsinin bütün üzvləri ölkədən sürgün olundu. Şəriət və Vəqflər Nazirliyi ləğv edildi. Ruhanilər bütün var-dövlətlərindən məhrum edildi. Mədrəsələr bağlanıldı. **1924-cü il aprelin 20-də** Konstitusiya qəbul olundu. Birinci Dünya müharibəsində bitərəfliyini elan etməsinə baxmayaraq, Qacarlar dövlətinin ərazisi vuruşan dövlətlərin mübarizə meydanına çevrilmişdi. Rusiyanın müharibədən çıxmasından, Almaniya və Osmanlı imperiyalarının Birinci Dünya müharibəsində məğlubiyyətindən sonra bu dövlətin ərazisi, demək olar ki, bütünlüklə ingilis ordusu tərəfindən zəbt edilmişdi. Belə şəraitdə iqtisadiyyat çökmüş, ölkə müflisləşmiş, məclis buraxılmışdı. Dövlətdə hökumət kabinetləri tez-tez dəyişilirdi. İngilispərəst Vüsuquddövlə hökuməti məclisin razılığı olmadan Konstitusiyanı pozaraq 1919-cu ildə İngiltərə ilə saziş imzaladı. Bu saziş Qacarlar dövlətinin ordusunu, maliyyəsini, yol tikintisini, xarici ticarəti və ölkənin digər ictimai-siyasi sahələrini ingilislərin nəzarətinə verdi.

Bütün bmumxalq narazılığı doğurdu. 1920-ci il aprelin 7-də Təbrizdə **Şeyx Məhəmməd Xiyabaninin** üsyan başlandı. Bununla yanaşı, ölkənin şimalında – Gilanda, daha sonra Xorasanda xalq azadlıq hərəkatı alovlandı. Lakin üsyançıların pərakəndə və lokal hərəkət etməsi İngiltərədən kömək alan mərkəzi hakimiyyətə 1922-ci ilin əvvəllərinədək üsyanları yatırmağa şərait yaratdı.

Yeni hökumət "aristokratlara qarşı mübarizə" haqqında bəyannamə dərc etdi. Bəyannamədə fəhlələrin və kəndlilərin vəziyyətinin yaxşılaşdırılması məqsədi elan olunur, müstəqil siyasət yürüdüldüyü və 1919-cu il İngilis–Qacarlar müqaviləsinin ləğv edildiyi bildirilirdi. Tezliklə bütün ingilis maliyyə məsləhətçiləri, hərbi təlimatçıları, eləcə də ordusu İrandan çıxarıldı. Beləliklə, İngiltərə Birinci Dünya müharibəsindən sonra İranda əldə etdiyi bütün mövqeləri itirdi. 1923-cü ildə Rza xan Baş nazir oldu.

Hələ Birinci Dünya müharibəsi dövründə İngiltərə və Fransa ərəb ölkələri üzərində hegemonluq üçün öz aralarında gizli razılığa gəlmişdi. Ərəb ölkələrinin siyasi dairələri hələ 1917-ci ilin sonlarında onlarla bağlı məkrli planların qurulduğunu anlamağa başlamışdı. Müharibənin yekunlarına həsr olunmuş Versal konfransında ərəb ölkələrinin idarəetmə məsələsi müzakirə olundu. 1920-ci il San-Remo anlaşmasına görə, Suriya və Livan Fransanın, Misir, Fələstin və İraq İngiltərənin mandatlığına keçdi.

Birinci Dünya müharibəsindən sonra Misirdə azadlıq hərəkatının yeni mərhələsi başladı. Misir millətçiliyinin əsasını **fironluq** – Qədim Misir dövrünün mədh edilməsi təşkil edirdi. Bu hərəkat 1922-ci ildə Tutanhamonun sərdabəsi açılandan sonra daha da gücləndi. Müstəqillik mübarizəsinə **"Əl-Vafd əl-Misri"** adlı burjua partiyası rəhbərlik edirdi. 1923-cü ildə İngiltərə Misirin müstəqilliyini tanıdı. 1923-cü il konstitusiyasına görə Misir konstitusiyalı monarxiya oldu. Mübarizə aparanlar ərəblərlə yəhudilərin bərabər hüquqlar çərçivəsində yaşaya biləcək azad Fələstin dövlətinin yaradılması üçün çalışırdılar. Ancaq İngiltərə və ABŞ-ın dəstəyinə xalanan sionist liderləri Fələstinin sırf yəhudi dövlətinə çevrilməsini tələb edirdilər.ar

Fransanın mandat idarəçiliyinə keçən Suriyada müstəmləkə rejiminin ləğvi naminə aramsız kəndli çıxışları baş verirdi. Bu çıxışların ən güclüsü 1925–1927-ci illəri əhatə edən silahlı üsyan idi. Üsyançılar Dəməşqi tutmasına baxmayaraq, tezliklə fransız müstəmləkəçiləri tərəfindən məğlub edildilər. Güclənən xalq hərəkatı qarşısında geri çəkilməyə məcbur olan Fransa hökuməti 1936-cı ildə üç ildən sonra mandatlığın ləğv ediləcəyi barədə vəd verdi.

Ərəbistan yarımadasında Nəcd, Hicaz, Əsir, Yəmən və digər knyazlıqlar arasında aramsız müharibələr gedirdi. Tezliklə Nəcd hakimi Əbdül əl-Əziz ibn Səud qələbə qazanaraq Məkkə və Mədinəni birləşdirib 1926-cı ildə Nəcd və Hicaz kralı titulunu qəbul etdi. Sonra o, ətrafındakı digər əraziləri də birləşdirdi. 1932-ci ildə kral "Quran"ın ölkə konstitusiyası, ölkəsinin Səudiyyə Ərəbistanı Krallığı elan edilməsinə dair fərman verdi.

ingiltərənin Hindistanda müstəmləkə rejimini möhkəmləndirməyə yönəlmiş islahatları 1918–1921-ci illərdə azadlıq hərəkatının yüksəlməsinə səbəb oldu. İngilis hökuməti bu qanunlarla Hindistandakı hakim dairələrə fövqəladə hüquqlar verirdi. Hakim dairələrin bütün yüksək rütbəli vəzifələri ingilislərin əlində idi. Hindlilər ancaq yerli əhəmiyyətli vəzifələrdə ola bilərdilər. Qanuna əsasən, hind xalqının (yaşlı əhalinin) seçki hüququ 1 faizdən 3 faizə qaldırılmışdı.

Qanun bütün ölkədə kəskin etiraza səbəb oldu. Hindistan Milli Konqresi kütləvi mübarizəni genişləndirmək taktikasını bəyəndi. **Mohandas Karamçand Qandi** Milli Konqresə başçılıq edərək əhalinin geniş təbəqələrini hərəkata cəlb edə bildi. Ölkəni nümayişlər və mitinqlər dalğası bürudü. Qandinin elan etdiyi vətəndaş itaətsizliyi kampaniyası Hindistana özünüidarə hüququ verilməsi şüarı altında gedirdi. Hər yerdə ingilis mallarının boykotu başlandı. Fəhlələr ingilis müəssisələrində işləməkdən imtina edir, qatarların hərəkətini dayandırırdılar. Lakin ingilis hakimiyyət orqanları hərəkat iştirakçıları arasında birliyin olmamasından istifadə edərək onu qəddarlıqla yatırdılar.

1930-cu ildə HMK-nın qərarı ilə yeni vətəndaş itaətsizliyi kampaniyasının keçirilməsinə başlanıldı. **Yanvarın 26-sı "Hindistanın istiqlaliyyət günü"** elan edildi (Həmin gün indi də Hindistanda milli bayram kimi qeyd olunur).

Duz hasilatı və satışı müstəmləkəçilərin inhisarında idi. Ölkədə duz çox baha qiymətə satılırdı. Buna görə 1930-cu ildə **Duz yürüşü** başlandı. Tezliklə bu hərəkat ölkənin hər yerində ingilislərə qarşı itaətsizlik kampaniyasına çevrildi.

Hindistanın siyasi təşkilatları ilə uzun müzakirələrdən sonra 1935-ci ildə Britaniya parlamenti Hindistanın yeni Konstitusiyasını təsdiq etdi. Qanuna görə, Hindistan Britaniya Hindistanı və knyazlıqlardan ibarət federasiya elan olundu. Ölkə əhalisinin 12%-i seçki hüququ aldı. Konstitusiyanı verməklə "parçala və hökmranlıq et" prinsipinə riayət edən ingilis hökuməti ölkənin siyasi qüvvələri (xüsusən də hindlilər və müsəlmanlar) arasında ixtilafları gücləndirdi. Bu da, öz növbəsində, Hindistanda milli azadlıq hərəkatına zərbə vurdu.

Birinci Dünya müharibəsi başa çatandan sonra **müharibə borcları** və**təzminatlar problemi** dövlətlərarası münasibətlərin əsas məsələsi oldu. 1922-ci ildə bu məsələlərin həlli üçün **Genuyada** (İtaliya) beynəlxalq konfrans keçirildi. Konfransda Sovet Rusiyası və Almaniya da iştirak edirdi. Rusiya çar hakimiyyətinin dövründə alınmış borcların ona aid olmadığını bildirdi. Konfransın gedişində Sovet Rusiyası və Almaniya arasında **Rapalloda** (Genuya yaxınlığı) iqtisadi müqavilə imzalandı. Bu, müharibədən sonra təcrid edilmiş hər iki dövlət üçün mühüm hadisə oldu.

1923-cü ildə Fransa və Belçika qoşunları Almaniyanın əsas sənaye mərkəzi olan Rur bölgəsini işğal etdi. Almaniyada baş verən yüksək inflyasiya təzminatların dəyərsiz kağız pullarla ödənəcəyi narahatlığını yaratmışdı. Fransa Rur bölgəsindəki kömürü hərbi yolla müsadirə edərək Almaniyanı cəzalandırmaq istəyirdi. Rur böhranı təzminatın ödənilmə vaxtının uzadılması məsələsini ortaya

çıxarmışdı. Bunun üçün 1924-cü ildə **Daues planı** qəbul edildi. ABŞ dövlət xadimi Çarlz Daues tərəfindən hazırlanan bu plan təzminatın ödənilmə vaxtının uzadılmasını nəzərdə tuturdu. Almaniya inflyasiyadan yeni pul vahidinin buraxılması və ABŞ-ın verdiyi borclardan istifadə etməklə çıxa bildi.

Fransa–Almaniya yaxınlaşmasının təsiri ilə 1924–1929-cu illər dövlətlərarası münasibətlərdə **yumşalma dövrü** kimi səciyyələndirilir. 1925-ci ildə keçirilən **Lokarno konfransında** qəbul edilən "Reyn" paktı Fransa, Belçika və Almaniya arasındakı sərhədlərin toxunulmazlığını təminat altına aldı.

Anlaşılmazlıqların sülh yolu ilə həll edilməsinə qərar verildi. Bununla da, Almaniya yenidən dövlətlərarası əməkdaşlığa başladı. 1926-cı ildə Millətlər Cəmiyyətinə daxil oldu və bərabərhüquqlu tərəfdaş kimi tanındı.

Dünya iqtisadi böhranının təsiri ilə bütün ölkələrin gömrük maneələrini artırması Yaponiyanın yeni xammal mənbəyi və satış bazarları ələ keçirmə siyasəti yürütməsinə səbəb oldu. O, 1930-cu illərin əvvəllərində Çinin şimalındakı Mancuriyanı işğal etdi və burada özündən asılı oyuncaq dövlət yaratdı. Millətlər Cəmiyyətinin etirazı qarşısında Yaponiya bu təşkilatı tərk etdi.

1933-cü ildə Almaniyada nasistlər hakimiyyətə gəldikdən sonra bu dövlət də Millətlər Cəmiyyətini tərk etdi. Böyük böhran nəticəsində ayrı-ayrı ölkələrin qapalı iqtisadi siyasət yeritməyə məcbur olması, Millətlər Cəmiyyətinin iflası silahsızlaşma sahəsində uzlaşmalardan tədricən uzaqlaşmaya səbəb oldu.

Dünyada avtoritar rejimlərın sayı çoxalırdı. İqtisadi böhranın yayılması 1930-cu illərdə Avropada diktatura rejimlərinin artmasına səbəb oldu. ***Liberal demokratiyanın*** zəifləməsinin əlaməti olan bu amil dövlətlərarası münasibətlərdə gərginliyi daha da artırdı. Almaniya 1935-ci ildə Versal müqaviləsinin şərtlərini pozaraq ümumi hərbi mükəlləfiyyət bərpa etdi. Bu dövrdə Fransa Almaniyanı təcrid etmək siyasəti yeridirdi. 1936-cı ildə Almaniya Versal müqaviləsini bir daha pozaraq silahsızlandırılmış Reyn bölgəsinə qoşun yerləşdirdi. Bununla da, Versal sistemi süqut etdi. Bu hadisə İngiltərə və Fransa tərəfindən yalnız şifahi etirazla qarşılandı. Bu, Hitlerin daxili və xarici nüfuzunu artırdı, onu daha sərt tələblər irəli sürmək üçün cəsarətləndirdi.

1935–1936-cı illərdə İtaliyanın Efiopiyanı işğal etməsi dövlətlərarası münasibətlərdə əsaslı dəyişikliklərə səbəb oldu. İngiltərə və Fransa bu işğalı pislədiyi üçün Mussolini onlardan uzaqlaşdı və Hitlerlə yaxınlaşdı. 1936-cı ildə Almaniya və İtaliya arasında ittifaq bağlandı. Uzaq Şərqdə SSRİ ilə arasında olan gərginlik Yaponiyanı da Almaniya ilə yaxınlaşdırdı. 1936-cı ildə onlar arasında ***"Anti-komintern"*** paktı imzalandı. Pakta görə, bu dövlətlər Beynəlxalq kommunist təşkilatına qarşı birgə mübarizə aparmalı idi. Sonralar İtaliya, Macarıstan, İspaniya və bir sıra başqa ölkələr də bu pakta qoşuldu.

Dövlətlərarası münasibətlərdə gərginlik yaradan hadisələrdən biri də **İspaniyada Vətəndaş müharibəsi** oldu. 1936-cı ildə bu ölkədə demokratik seçki yolu ilə hakimiyyətə respublika tərəfdarı olan Xalq Cəbhəsi gəlmişdi. Lakin faşistpərəst hərbi qüvvələr general Frankonun başçılığı ilə qiyam qaldırdılar. Beləliklə, ölkədə respublikaçılarla faşistlər arasında Vətəndaş müharibəsi başladı. 1937-ci ildə İtaliya və Almaniya faşistlərə yardım etmək üçün müdaxilə etdi. Lakin Avropanın liberal demokratik rejimli ölkələri müharibədən çəkinərək qarışmamaq siyasəti yürüdürdülər. SSRİ isə respublikaçılara kömək edirdi. Müharibə 1939-cu ildə faşistlərin qələbəsi ilə başa çatdı və İspaniyada faşist diktaturası yaradıldı. Faşizm və demokratiya arasında baş verən İspaniya Vətəndaş müharibəsi yaxınlaşan yeni dünya müharibəsinin ayaq səsi idi.

Versal müqaviləsi ilə qadağan edilməsinə baxmayaraq, Avstriya 1938-ci ildə Almaniyaya birləşdirildi. Bundan sonra Hitler Çexoslovakiyanın almanlar yaşayan bölgəsi olan Sudet vilayətinin Almaniyaya verilməsini tələb etdi. 1938-ci ilin sentyabrında Almaniya, İtaliya, İngiltərə və Fransanın iştirakı ilə **Münhen konfransı** keçirildi. Hərbi cəhətdən hazır olmadığını və ölkəsində ictimai rəyin müharibənin əleyhinə olduğunu nəzərə alan İngiltərə və Fransa Sudetin Almaniyaya ilhaq edilməsinə qarşı çıxmadı. Sakitləşdirmə siyasəti yürüdən İngiltərə və Fransa müttəfiqləri olan Çexoslovakiyanı müdafiə etmədiyi üçün nüfuzdan düşdü. 1939-cu ildə Almaniya bütün Çexoslovakiyanı ilhaq etdi. Bununla da, Hitler ilk dəfə almanların yaşamadığı bölgəni işğal etmiş oldu. Bu isə İngiltərə və Fransanın sakitləşdirmə siyasətinin uğursuzluğu demək idi.

1939-cu ildə Almaniya Polşaya qarşı ərazi iddiası qaldırdı. Buna cavab olaraq, İngiltərə və Fransa SSRİ ilə ittifaq haqqında danışıqlara başladı. Lakin danışıqlar ləngiyirdi. 1939-cu ilin avqustunda gözlənilmədən Almaniya ilə SSRİ hücum etməmək haqqında pakt imzaladı. Molotov və Ribbentrop (hər iki dövlətin Xarici İşlər naziri) paktı adlandırılan bu müqavilə Avropada təəccüblə qarşılandı. Çünki ideoloji cəhətdən iki zidd dövlətin uzlaşması gözlənilmirdi. Birinci Dünya müharibəsindən fərqli olaraq Almaniya iki cəbhədə vuruşmaq istəmirdi. Paktın gizli protokolunda Polşanın bölüşdürülməsi və Şərqi Avropada hər iki dövlətin nüfuz dairələri razılaşdırıldı.

## 5.IIDünya müharibəsi. Faşist blokunun üsdünlüyü.Müharibədə dönüş və faşist blokunun məğlubiyyəti. Mədəniyyət.

Mövcud nüfuz dairələrini, xammal və satış bazarlarını yenidən bölüşdürmək uğrunda mübarizə güclənmişdi. Versal-Vaşinqton sisteminin sərt, ağır və ədalətsiz şərtlərindən narazı olan Almaniya və Yaponiyada millətçilik, irqçilik və qisasçılıq, İtaliyada revanşizm meyli şiddətlənmişdi. SSRİ Şərqi Avropanı ələ keçirməyə, Qara dəniz boğazlarında, Ön və Cənubi Asiyada, Uzun Şərqdə nüfuz

dairəsini genişləndirməyə çalışırdı. Böyük Britaniya, Fransa və ABŞ öz xammal və satış bazarlarını, nüfuz dairələrini qoruyub saxlamaq əzmində idilər. İkinci Dünya müharibəsinin səbəblərindən biri də liberal-demokratik dövlətlərin totalitar rejimləri – faşizmi və kommunizmi, nasizmi və bolşevizmi bir-birinə qarşı qoyub zəiflətmək və məhv etmək cəhdi idi.

Mövcud nüfuz dairələrini, xammal və satış bazarlarını yenidən bölüşdürmək uğrunda mübarizə güclənmişdi. Versal-Vaşinqton sisteminin sərt, ağır və ədalətsiz şərtlərindən narazı olan Almaniya və Yaponiyada millətçilik, irqçilik və qisasçılıq, İtaliyada revanşizm meyli şiddətlənmişdi. SSRİ Şərqi Avropanı ələ keçirməyə, Qara dəniz boğazlarında, Ön və Cənubi Asiyada, Uzun Şərqdə nüfuz dairəsini genişləndirməyə çalışırdı. Böyük Britaniya, Fransa və ABŞ öz xammal və satış bazarlarını, nüfuz dairələrini qoruyub saxlamaq əzmində idilər. İkinci Dünya müharibəsinin səbəblərindən biri də liberal-demokratik dövlətlərin totalitar rejimləri – faşizmi və kommunizmi, nasizmi və bolşevizmi bir-birinə qarşı qoyub zəiflətmək və məhv etmək cəhdi idi.

Müharibənin digər mühüm səbəblərindən biri də liberal-demokratik dövlətlər və SSRİ tərəfindən faşizm, nasizm təhlükəsinin lazımınca qiymətləndirilməməsi olmuşdu. İkinci Dünya müharibəsini xronoloji baxımdan üç böyük dövrə bölmək olar. Birinci dövr 1939-cu il, sentyabrın 1-dən 1942-ci ilin iyun ayınadək davam etmişdi. Bu dövr təcavüzkarın üstünlüyü şəraitində müharibənin miqyasının genişlənməsi ilə səciyyələnir. İkinci dövr – 1942-ci ilin iyun – 1944-cü ilin yanvar ayları – təşəbbüskarlıq və üstünlük antihitler koalisiyasının əlinə keçmiş əsaslı dönüş dövrüdür. 1944-cü ilin yanvarından 1945-ci ilin 2 sentyabrınadək olan üçüncü dövr faşist bloku dövlətləri ordularının darmadağın edilməsi, təcavüzkar dövlətlərdə hakim rejimlərin böhranı və dağılması ilə əlaqədardır. İkinci Dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniya qoşunlarının Polşaya hücumu ilə başlandı. Alman ordusu Polşa qoşunlarının müdafiə xəttini yarıb ölkənin içərilərinə doğru sürətlə irəlilədi. Polşa hökuməti ölkəni tərk etməyə məcbur oldu. Oktyabrın 2-də Polşa ordusunun müqavimət göstərən son hissələri də təslim oldular. Polşa Almaniya hərbi təcavüzünün və nasist irqi nəzəriyyəsinin ilk qurbanı oldu. Böyük Britaniya və Fransa sentyabrın 3-də Almaniyaya müharibə elan etsələr də, ona qarşı fəal hərbi əməliyyatlara girmədilər. Hərbi qüvvə cəhətdən üstünlük təşkil etsələr də, Fransa və Böyük Britaniya 1940-cı il mayın əvvəllərinə kimi düşmənə qarşı fəal hərbi əməliyyatlar aparmadılar.

Qərb cəbhəsində buna görə İkinci Dünya müharibəsinin bu dövrü tarixə “Qəribə müharibə” adı ilə daxil olmuşdur. Almaniya ilə bağlanan protokola əsasən 1939-cu il sentyabrın 17-də Sovet qoşunları Polşaya qarşı müharibəyə başlayaraq, Qərbi Ukrayna və Qərbi Belorus torpaqlarını ələ keçirdi. Həmin ərazilər SSRİ-yə birləşdirildi. 1939-cu il, sentyabrın 28-də SSRİ ilə Almaniya arasında imzalanmış “Dostluq və sərhədlər haqqında” müqavilə Polşanın

bölüşdürülməsini təsdiq etdi. 1939-1940-cı illərdə SSRİ Karel-Fini, Estoniya, Litva, Latviya, Bessarabiya və Şimali Bukovinanı işğal etdi. Təcavüzkar hərəkətlərinə görə SSRİ 1939-cu il, dekabrın 14-də Millətlər Cəmiyyətindən çıxarıldı. Almaniya 1940-cı ilin aprelində müharibədə bitərəflik mövqeyi tutan Danimarkanı, iyunda isə Norveçi təslim etdi. Mayın 10-da Hollandiya bə Belçika təslim oldu. Almanlar Kale limanını ələ keçirib mayın sonlarında 340 minlik ingilis-fransız-belçika qoşun birləşməsini Dünkerk rayonunda sahilə sıxışdırdılar. Hitlerin əmri ilə hücum dayandırıldı. Bu hadisə tarixə "Dünkerk möcüzəsi" adı ilə daxil oldu. Böyük Britaniya çox çətinliklə ordunun bir hissəsini mühasirədən çıxara bildi. Hərbi texnika isə düşmənə qaldı. Mayın 26-da alman qoşunu Fransaya hücum etdi. Son müdafiə döyüşü Ema çayı yaxınlığında baş verdi. "Majino müdafiə xətti" yaradıldı. Alman qoşunları iyunun 14-də Parisə daxil oldu. Hökumətin yeni başçısı, fransız faşistlərinin lideri marşal A.Peten Almaniyadan barışıq istədi. Barışıq sazişi iyunun 22-də Kompyen meşəsində, Foşun 1918-ci ildə Almaniyanın təslim olması haqqında barışıq imzalanmış qərargah-vaqonunda imzalandı.

Barışıq şərtinə görə Fransa iki hissəyə parçalandı: faşistlər tərəfindən istila olunmuş şimal, mərkəzi Vişi qəsəbəsi olan və Fransa hökumətinə tabe olan cənub hissələrinə. Vişi hökumətinin kiçik ordusu vardı. Donanması ləğv edilmişdi. Fransa müstəmləkələrinə inzibati rəhbərlik bu hökumətə məxsus idi. Ölkə Konstitusiyası ləğv edilmiş, Petenə qeyri-məhdud hakimiyyət verilmişdi. Kollaborsionist Vişi rejimi 1944-cü ilin avqustunadək yaşamışdı. Fransanın antifaşist qüvvələri isə general Şarl de Qollun İngiltərədə təşkil etdiyi "Azad Fransa" komitəsi ətrafında birləşib işğalçılara qarşı mübarizəni davam etdirirdilər. Fransa məğlub olduqdan sonra Qərbdə Almaniya əleyhinə kontinental cəbhə ləğv olundu. Almaniya və Böyük Britaniya bir-birinə qarşı hava hücumları yolu ilə döyüşməyə başladılar. Almaniya 1940-cı ilin avqustundan 1941-ci ilin mayına kimi Böyük Britaniyanı müharibədən çıxarmaq məqsədilə "Dəniz şiri" şərti adı altında onun şəhər və hərbi obyektlərini bombardman etməyə başladı. Almaniya təcavüzünə müqavimət göstərən yeganə dövlət Böyük Britaniya idi. Hərbi-dəniz donanması cəhətdən Böyük Britaniyadan zəif olan Almaniyanın 1940-cı ilin iyulunda başladığı desant əməliyyatından imtina etməsi də vəziyyəti yüngülləşdirdi. Böyük Britaniya faşistlərin güclü və aramsız hava hücumlarına məruz qalmasına baxmayaraq döyüşürdü. İkinci Dünya müharibəsinin döyüş cəbhələrindən biri də Şimali Afrika idi.

1940-cı il, iyunun 10-da Böyük Britaniya və Fransaya qarşı müharibəyə başlayan İtaliyanın Həbəşistandakı ordusu avqust ayında hücum edib Keniyanın bir hissəsini, Sudanın mühüm məntəqələrini və Britaniya Somalisini ələ keçirdi. Oktyabrda isə Süveyş kanalını tutmaq üçün Liviyaya və Misirə soxuldu. Lakin Böyük Britaniya qoşunları tezliklə təşəbbüsü ələ alıb italyan ordusunu Həbəşistanda təslim olmağa məcbur etdilər. Dekabrın 9-da isə hücuma keçib, az

bir vaxtda, Misiri tam azad etdilər. 1941-ci ilin yanvarında Afrikadakı İtaliya ordusu darmadağın edildi. Hitler italyan faşistlərinə kömək göndərməyə məcbur oldu. Alman-italyan qoşunları Şimali Afrikada hücuma keçdilər. Tobrukdakı ingilis hissələrini mühasirəyə aldılar. Lakin onların hücumları dəf edildi. Alman-italyan qoşunlarının Süveyş kanalını ələ keçirmək niyyəti baş tutmadı. Yanvar-may aylarında ingilis qoşunları Britaniya və İtaliya somalilərini, Keniya, Sudan, Həbəşistan və Eritriyanı italyanlardan azad etdi. 1941-ci ilin aprelində Yuqoslaviya və Yunanıstan danışıqsız təslim oldular. Balkanlarda ingilislərin mövqelərinə ciddi zərbə endirildi. Britaniya korpusu geriyə — Misirə qaytarıldı. Şərqdə Yaponiya Çinin böyük bir hissəsini işğal etmişdi. Fransanın məğlubiyyətindən sonra yaponlar öz hərbi hissələrini onun müstəmləkələrində — Vyetnam, Laos və Kampuçiyada yerləşirdi. Antifaşist müqavimət hərəkatı 1939-1941-ci illərdə meydana gəlmişdi. Bu hərəkatın sıralarında Fransa, Yuqoslaviya, Yunanıstan, Norveç, Polşa, Çexoslovakiya, Çin və b. ölkələrdən milyondan çox adam vuruşmuşdu.

1942-ci ilin yayından müharibənin gedişində yeni mərhələ başlandı. 1942-ci ilin iyunu-1944-cü ilin yanvarını əhatə edən bu dövr II dünya müharibəsi tarixinə əsaslı dönüş mərhələsi kimi daxil olmuşdur. Belə ki, bu mərhələdə faşist bloku ölkələri cəbhələrdə strateji təşəbbüsü itirmişdilər, iqtisadi, hərbi, siyasi və mənəvi üstünlük antihitler koalisiyasının əlinə keçmişdi. Müttəfiqlər bütün cəbhələrdə təşəbbüsü öz əllərinə almışdılar. 1942-ci ilin mayın 7 - 8-də ABŞ orduları Korolin dənizindəki döyüşdə Yaponiyanı məğlubiyyətə uğratdı. Müharibənin gedişində əsaslı dönüşün ilk tutarlı addımı 1942-ci ilin iyununda Sakit okeanın mərkəzində yerləşən mərcan adası Miduey yaxınlığındakı döyüşdən başlamışdı. Həmin döyüşdə yaponlar ciddi məğlubiyyətə düçar olmuş və bundan sonra Sakit okeanda müdafiə mövqelərinə keçmişdilər. 1943-cü ilin noyabrında Gilbert adalarında da yaponlar ciddi məğlubiyyətə uğradılar. Müharibənin gedişində əsaslı dönüşün yaranmasında Şərq cəbhəsində sovet qoşunlarının Stalinqrad (1942 - 1943) və Oryol-Kursk ətrafında alman ordularına qarşı keçirdikləri hərbi əməliyyatların müstəsna rolu olmuşdu. Çox müstəsna strateji əhəmiyyəti olan Stalinqrad uğrunda döyüşlər 1942-ci ilin yayından (iyulun 17-dən) başlamışdı. Avqustun 25-də Stalinqrad mühasirə vəziyyətinə salınmışdı. Stalinqrad əməliyyatı 1943-cü il fevralın 2-də başa çatmışdı. Bu əməliyyat zamanı almanların 22 diviziyası - 330 mindən çox əsgər və zabiti mühasirəyə alınaraq məhv edilmişdi:

Müharibənin gedişində sonrakı mərhələ (1944-cü il yanvar-1945-ci il sentyabr) Almaniya faşizminin və Yaponiya militarizminin darmadağın edilməsi uğrunda mübarizə ilə səciyyələnir. Bu dövrdə müttəfiq ölkələrin bütün səyləri tezliklə müharibəyə son qoyulmasına yönəldilmişdi.
1944-cü ilin əvvəlindən etibarən SSRİ qoşunlarının keçirdiyi bir sıra strateji

hərbi əməliyyatlar nəticəsində almanlar tərəfindən zəbt edilmiş sovet əraziləri tamamilə azad edildi, döyüşlər Avropa ölkələrinə keçirildi. 1944-cü ilin yanvar-fevralında Leninqrad-Novqorod vilayətləri, martda sağ sahil Ukraynası, aprel-mayda Krım-Odessa vilayətləri, iyunda Kareliya, iyun-iyulda Belarusiya, iyul-avqustda Qərbi Ukrayna, avqust ayında Moldaviya, sentyabr-oktyabrda Baltikyanı respublikalar almanlardan xilas olundular. 1944-cü ilin oktyabrı üçün SSRİ-nin keçmiş sərhədi bərpa olundu.

Belə bir şəraitdə SSRİ, ABŞ və Böyük Britaniya dövlət başçılarının Krım (Yalta) konfransı (1945-ci il fevralın 4-11-də) toplandı. Konfransda İ.V.Stalin (SSRİ), F.Ruzvelt (ABŞ) və U.Çörçill (Böyük Britaniya) iştirak edirdi. Konfransda Almaniyaya qarşı birgə mübarizəni davam etdirmək, hərbi əməliyyatları sıx əlaqələndirmək razılığına gəlindi. Konfransda tərəflər Almaniyanın gələcək perspektivləri barədə də yekdil qərarlar qəbul etdilər. 1945-ci il aprelin 16-dan Berlin uğrunda döyüşlər başladı. Aprelin 25-də Elbada (Torqau rayonunda) müttəfiq qoşunları görüşdülər. Berlinin mühasirəsi başa çatdı. Mayın 2-də Berlin alındı. Ondan 2 gün əvvəl imperiya dəftərxanasının bunkerində Hitler intihar etdi. Mayın 8-nə kimi Praqadakı faşist qoşunlarının müqaviməti qırıldı. Mayın 8-də Berlin yaxınlığındakı Karl-Xorstda Almaniya danışıqsız təslim aktım imzaladı. 1945-ci il aprelin axırlarında vaxtilə almanların işğal etdiyi Şimali İtaliyada Mussolinin başçılığı ilə yaradılmış "Salo Respublikası" (Sosial Respublika) üsyançılar tərəfindən devrildi. Mussolini tutulub edam edildi.

Dünyanın, o cümlədən Avropanın müharibədən sonrakı quruluşunu müzakirə etmək məqsədilə 1945-ci il iyulun 17avqustun 2-si arasında Potsdam (Berlin yaxınlığında) konfransı keçirildi. Konfransda ABŞ, SSRİ və Böyük Britaniyanın dövlət başçıları iştirak edirdilər.
Konfrans məğlub edilmiş Almaniyaya münasibətlərin prinsiplərini hazırladı. Almaniyanın tərksilah edilməsi, nasional-sosialist partiyasının buraxılması, hərbi cinayətkarların cəzalandırılması, siyasi həyatın demokratikləşdirilməsi, iqtisadiyyatın dinc əsasda inkişaf etdirilməsi sazişin mühüm prinsipləri idi. Konfrans Avropada sərhəd məsələlərinə də baxdı. Keniqsberq (Kalininqrad) şəhəri SSRİ-yə verildi. Polşanın qədim torpaqları özünə qaytarıldı.

1945-ci ilin yayı üçün müttəfiqlərin silahlı qüvvələri Sakit okeanda iri hərbi əməliyyatlar apararaq bir sıra adaları (Marşall, Marian) tutdular. Filippinin, Birmanın xeyli hissəsini işğalçılardan təmizlədilər və İndoneziya adalarını azad etməyə başladılar. 1945-ci il avqustun 6da və 9-da ABŞ Yaponiyanın Xirosima və Naqasaki şəhərlərinə atom bombası atdı. 270 min dinc əhali öldürüldü. Bunlar, hələ müharibə vaxtı atom vahiməsini dünyaya yaydı. O, həm də SSRİ-

yə təsir etmək məqsədi güdürdü.
SSRİ Krım (Yalta) konfransının qərarını yerinə yetirərək 1945-ci il avqustun 8-də Yaponiyaya müharibə elan etdi və avqustun 9-dan ona qarşı hərbi əməliyyatlara başladı. Qısa bir zaman ərzində bir milyonluq Kvantun ordusunu təslim olmağa məcbur etdi. Şimali-Şərqi Çin, Şimali Koreya, Cənubi Saxalin və Kuril adaları yapon qoşunlarından təmizləndi.1945-ci il sentyabrın 2-də Tokio körfəzində Amerikanın Missuri gəmisində Yaponiya danışıqsız təslim aktını imzaladı. Beləliklə, 1939-cu il sentyabrın 1-də başlayan ikinci dünya müharibəsi 6 il sonra-1945-ci il sentyabrın 2-də başa çatdı.

**6.ABŞ ,Qərbi Avropa ölkələri.SSRİ və Şərqi Avropa ölkələri.**

1945-ci ilin aprelində F.Ruzveltin qəfil vəfatından sonra onu bu vəzifədə vitse-prezident **Harri Trumen** əvəz etdi. "Yeni xətt"i davam etdirən Harri Trumen Konqresə sonralar "Ədalətli xətt" adlandırılan geniş liberal islahatlar proqramını təklif etdi. Müharibədən sonra güclənmiş iri kapital dairələri isə iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi siyasətinə qarşı çıxaraq "prosperiti dövrü"nün qaydalarına qayıdılmasını tələb edirdilər. 1948-ci ilin prezident seçkilərində H.Trumen qalib gəldi. Minimum əməkhaqqının artırılması, sosial sığorta haqqında qanunun əhatə etdiyi şəxslərin sayının çoxaldılması, azgəlirli ailələr üçün mənzillərin inşasının maliyyələşdirilməsi haqqında qanunlar qəbul olundu. Soyuq müharibənin kəskinləşməsi, SSRİ-nin atom casusluğu, Çində kommunistlərin hakimiyyətə gəlməsi ABŞ cəmiyyətində təlaş əhvalını gücləndirmişdi. Bu zaman ABŞ-da aparılan qatı antikommunist kampaniyası senator **Cozef Makkartinin** adı ilə makkartizm (1950–1954) adlanırdı.

Milli sərvətinin 25%-ni itirmiş Böyük Britaniya üçün müharibə "zəfər və faciə" (U.Çörçill) ilə nəticələndi. 1945-ci ildə keçirilən növbədənkənar parlament seçkilərində qalib gələn leyboristlər bir sıra müəssisələri dəyəri sahibkarlara ödənilməklə milliləşdirdi. Yeni sosial sığorta sistemi yaradıldı və dövlət əhalini ölkə tarixində ilk dəfə pulsuz tibbi yardımla təmin etdi.

1951-ci ildə parlament seçkilərində qalib gələn mühafizəkarlar leyboristlərin iqtisadi və sosial sahədə həyata keçirdikləri siyasəti qismən dəyişdirdilər. 1950-ci illərdə Böyük Britaniya sənaye istehsalının həcminə görə dünyada ABŞ-dan sonra ikinci dövlət oldu. Lakin elmi-texniki inqilabın genişləndiyi bir dövrdə dövlətin iqtisadiyyatı tənzimləmə funksiyalarının zəiflədilməsi və müstəmləkələrin itirilməsi ölkəni ağır böhran qarşısında qoydu. Böyük Britaniya cəmiyyəti ölkənin siyasi, iqtisadi və elmi-texniki sahədə geriliyi, imperiyanın süqutu və böyük dövlət statusunu itirməsi səbəbindən mənəvi problemlərlə üzləşmişdi. 1960-cı illərin sonlarında Olsterdə (Şimali İrlandiya) milli-siyasi zəmində toqquşmalar artdı. Hökumətin buraya qoşun yeritməsi vəziyyəti daha da ağırlaşdırdı. Avropa Birliyinin ümumi bazarına daxil olmaqla ixracatın artırılmasına və büdcə gəlirlərinin çoxalmasına olan ümidlər gerçəkləşmədi.

Fransanın işğaldan azad edilməsi mərhələsində fransızların "xilaskar" adlandırdıqları general Şarl de Qollun başçılığı ilə Müvəqqəti hökumət təşkil olundu. Şarl de Qoll Fransanın əvvəlki qüdrətini bərpa etməyə ümid edirdi. O, hökumət dövlət aparatında çalışan satqın məmurlara qarşı irimiqyaslı təmizləmə işləri apardı. Dünyada ən mükəmməl sosial sığorta sistemlərindən biri Fransada yaradıldı. İşğalçılarla əməkdaşlıq etmiş sahibkarların mülkiyyətləri 1944–1946-cı illərdə müsadirə olundu, iqtisadiyyatın bəzi sahələrində isə müəssisələr mülkiyyətçiyə dəyəri ödənilməklə milliləşdirildi.

De Qoll qanunverici orqanın hökumətin gündəlik fəaliyyətinə müdaxiləsinə qarşı etiraz edərək 1946-cı ilin yanvarında istefa verdi. Oktyabrda keçirilən referendumda təsdiq edilən yeni Konstitusiya parlamentin icra hakimiyyəti üzərində güclü nəzarətini təsbit edirdi. Konstitusiyanın qüvvəyə minməsi ilə Fransada Müvəqqəti rejim IV Respublika dövrü ilə əvəz olundu. Müharibənin nəticələrinin aradan qaldırılması, elmi-texniki tərəqqi, dövlət tərəfindən iri kapital qoyuluşu və sifarişlərin verilməsi iqtisadiyyatın inkişaf sürətini artırdı. Fransa 1950-ci illərin ortalarında bu göstəriciyə görə ABŞ və Böyük Britaniyanı ötüb-keçdi. XX əsrin əvvəllərindən fərqli olaraq, kapitalın xaricə ixracı azaldılıb ölkə iqtisadiyyatına qoyulurdu.

1950-ci illərin ikinci yarısında hökumətlərin tez-tez dəyişməsi parlament sisteminin nüfuzunu sarsıdırdı. 1958-ci ildə Əlcəzairdəki Fransa ordusunun komandanlığı qiyam qaldıraraq parlamentdən hakimiyyətin Şarl de Qolla verilməsini tələb etdi.

Müharibədən sonra viran qoyulmuş Almaniyanın mənəvi cəhətdən tamamilə düşkün vəziyyətdə olan əhalisi üçün ən vacib məsələ gündəlik qida və yaşayış yeri ehtiyaclarının təmin edilməsi idi. Ölkənin maliyyə sistemi iflasa uğramışdı. ABŞ siqaretləri qara bazarlarda əsas "valyuta" hesab olunurdu. Qaçqın düşmüş və deportasiya olunmuş almanların sayı 12 mln. nəfərə çatmışdı.

Böyük Britaniya və Fransa ABŞ-ın kifayət qədər güclü Almaniyanın qorunub saxlanılması niyyəti ilə razılaşmalı oldu. Almaniyanın qərb işğal zonalarının iqtisadi birliyi yaradıldı. Ona "Marşall planı" əsasında yardım göstərildi. Qərb ölkələrinin 1948-ci ildə burada həyata keçirdikləri pul islahatına SSRİ-nin cavab tədbirləri keçmiş müttəfiqlər arasında müharibə təhlükəsini gücləndirdi. Bundan sonra Qərbi Almaniya ərazisində ayrıca dövlətin yaradılmasına hazırlıqlar başlandı. 1949-cu ildə qəbul edilmiş konstitusiya əsasında yeni seçilmiş parlament Almaniya Federativ Respublikasının yaradıldığını elan etdi. Xristian Demokratik İttifaqının (XDİ) rəhbəri ***Konrad Adenauer*** AFR-in ilk federal kansleri seçildi. SSRİ də, öz növbəsində, buna cavab olaraq Almaniyanın sovet işğal zonasında Almaniya Demokratik Respublikasının yaradılmasına qərar verdi.

1950-ci illərdə AFR-də "iqtisadi möcüzə"nin baş verməsi, ilk növbədə, iqtisadiyyata iri kapital qoyuluşu, "Marşall planı"na əsasən yardımın göstərilməsi, aşağı əməkhaqqı ilə çalışmağa razı olan yüksəkixtisaslı işçi

ehtiyatının mövcudluğu, elmi-texniki tərəqqi, hərbi xərclərin az olması, ölkənin Qərbi Avropa ölkələrinin iqtisadi inteqrasiyasında iştirakı ilə bağlı idi
Müharibədən sonra keçirilən referendumda respublika tərəfdarları qalib gəldilər. 1947-ci ildə Respublikanın Konstitusiyası qəbul olundu. 1950-ci illərdə keçirilən aqrar islahat nəticəsində ölkənin cənubunda iri torpaq sahibkarlığı ləğv edildi. 1950–1963-cü illərdə sənaye istehsalının orta illik sürətinə görə İtaliya bütün Qərbi Avropa ölkələrindən irəlidə idi. "İqtisadi möcüzə", ilk növbədə, istehsalın əsas sahələrinə iri kapital qoyuluşu, dövlətin iqtisadiyyatda nizamlayıcı rolunun artırılması, "Marşall planı" əsasında yardımın edilməsi və İtaliyanın Qərbi Avropa ölkələrinin iqtisadi inteqrasiyasında iştirakı ilə bağlı idi.

946-cı ildən sonra dünyanın iki qütbə bölünməsi düşüncələr üzərində də nəzarəti gücləndirdi. Cəmiyyətin bütün sahələri, siyasi və sosial-iqtisadi fəaliyyət dövlətin inhisarında idi. Planlı iqtisadiyyat sistemi davam etdirilirdi. Rejim rəsmi ideoloji təbliğatı gücləndirmişdi. 1940-cı illərin ikinci yarısı – 1950-ci illərin əvvəllərində repressiyalar daha da sərtləşdirildi. Lakin 1953-cü ildə Stalinin ölümü ölkəni repressiyaların yeni dalğasından xilas etdi.

Stalinin vəfatından sonra hakimiyyətə **Nikita Xruşşov** gəldi. Xruşşov dövrü (1953–1964) Stalinin totalitar rejiminin mülayimləşdirilməsi ilə səciyyəvidir. 1956-cı ildə Sov. İKP-nin XX qurultayında Stalin dövrünün şəxsiyyətə pərəstiş siyasəti tənqid edildi. Bununla da, Xruşşov ölkədəki problemlərin səbəbi olaraq Kommunist Partiyasını deyil, Stalini və onun ətrafını günahlandırdı. Xarici siyasətdə də dəyişiklik baş verdi. Soyuq müharibə əvəzinə, "Kapitalist dövlətlərlə sülh şəraitində birlikdə yaşama" prinsipi irəli sürüldü.

## 7.Türkiyə və İran.Hindistan,Pakistan və Ərəb ölkələri,Çin,Yaponiya və Koreya.

İkinci Dünya müharibəsində hər iki tərəfin cəhdlərinə baxmayaraq, Türkiyə bitərəf qaldı. 1945-ci ilin fevralında Türkiyə Almaniya və Yaponiyaya müharibə elan etdi. Yaranması nəzərdə tutulan BMT-yə üzv qəbul edilmək üçün bu addımın atılması əsas şərt idi. Lakin bu dövrdə Türkiyənin beynəlxalq vəziyyəti çətin idi. Belə ki 1945-ci ilin martında SSRİ Türkiyəyə ərazi *iddiaları irəli* sürmüşdü. Ona görə də Türkiyə SSRİ-nin təcavüz təhlükəsinə qarşı ABŞ-la yaxınlaşmağa məcbur idi. **Trumen doktrinası və Marşall planına** əsasən, ABŞ Türkiyəyə hərbi-iqtisadi yardım göstərdi.

Müharibə dövründə həyata keçirilən iqtisadi siyasət – əmlak və torpaq vergisi böyük torpaq və sənaye müəssisələri sahiblərinin narazılığına səbəb olmuşdu. 1945-ci ildə qəbul edilən aqrar qanuna görə, dövlət torpaqlarının torpaqsız kəndlilərə paylanması və böyük torpaq sahiblərinin mülklərinin bir hissəsinin milliləşdirilməsi nəzərdə tutulurdu. Qanun torpaq sahiblərinin narazılığı ilə nəticələndi. Ona görə də onlar torpaq sahibləri olan millət vəkillərinin təzyiqi ilə yumşaldıldı.

Türkiyəni İkinci Dünya müharibəsinə daxil olmasına imkan verməyən prezident **İsmət İnönü** müharibədən sonra ölkədə demokratiyanın genişlənməsini təmin etdi. O, ölkənin qarşılaşdığı sosial-iqtisadi problemlərin xarici iqtisadi əlaqələr genişləndirilmədən həll edilməyəcəyini anlayırdı. Ona görə də bu dövrdə siyasi, iqtisadi və sosial sahələrdə islahatlar keçirildi. 1940-cı illərin ikinci yarısı – 1950-ci illərdən başlayaraq Türkiyədə dövlətin iqtisadiyyata nəzarəti nisbətən zəiflədi. İqtisadiyyatda xarici ticarətə imkan verən liberal siyasət həyata keçirilməyə başlandı.

İkinci Dünya müharibəsindən sonra yaranmış beynəlxalq siyasi və iqtisadi sistem Türkiyənin daxili siyasi durumuna da təsir göstərdi. BMT-yə üzv olan Türkiyə daxili siyasətində demokratikləşmə tədbirləri həyata keçirdi. İlk növbədə, siyasi partiyaların yaradılmasına icazə verildi. Müharibədən sonra iqtidarda olan Cümhuriyyət Xalq Partiyasının bir qrup üzvü ayrılaraq Demokrat Partiyasını qurdu. Onlar iqtisadi siyasətdə milliləşdirmənin əleyhinə çıxırdılar.1950-ci il seçkilərində Demokrat Partiyasının qalib gəlməsi Türkiyə tarixində dönüş nöqtəsi oldu. Partiyanın liderləri **Cəlal Bayar** prezident, **Adnan Menderes** isə Baş nazir oldu.

Dünya müharibəsində İran özünü bitərəf elan etsə də, şah hökumətinin Almaniya ilə yaxınlaşması onun ərazisinin 1941-ci ildə SSRİ və İngiltərə qoşunları tərəfindən işğal edilməsinə səbəb oldu. Rza şah devrildi və onun oğlu **Məhəmməd Rza (1941–1979)** şah elan edildi. Razılaşmaya əsasən, müharibə bitdikdən sonra bu dövlətlər qoşunlarını geri çəkməli idilər. Ona görə də ABŞ və İngiltərə qoşunları 1945-ci ildə İranı tərk etdilər. Lakin sovet qoşunları işğal bölgəsi olan Cənubi Azərbaycanda qalırdı. Cənubi Azərbaycan məsələsi Soyuq müharibənin başlanmasına təsir edən amillərdən biri oldu. Bu məsələ 1945-ci ildə yaradılmış BMT-nin Təhlükəsizlik Şurasında müzakirə edilən ilk hadisə idi.

Şah hökuməti SSRİ-yə güzəştli neft müqaviləsi vəd edərək **1946-cı ildə** sovet qoşunlarının İranı tərk etməsinə nail oldu. Bundan sonra İran ordusu hücum edərək Cənubi Azərbaycan muxtar hökumətini işğal edərək ləğv etdi. Bundan sonra ziyalılara və demokratik qüvvələrə qarşı repressiya siyasəti həyata keçirildi. Onlar həbs olunur və İranın cənubuna sürgün edilirdilər. Mətbuat üzərində senzura qoyulmuşdu. Ölkədə iqtisadi böhran güclənir, işsizlik artırdı. Kütləvi nümayiş və fəhlə tətilləri baş verirdi.

inci Dünya müharibəsində İngiltərə hökumətinin Hindistanın seçilmiş nümayəndələri ilə məsləhətləşmədən hind döyüşçülərini cəbhəyə göndərməsi milli azadlıq hərəkatını gücləndirdi. Hind milli azadlıq hərəkatının lideri **Mohandas Qandi** müstəmləkəçilərə qarşı dinc mübarizə kampaniyasını elan etdi. İngiltərə hökuməti müharibədən sonra islahatlar keçirməyi vəd edərək bu mübarizəni dayandırmaq istəyirdi. Lakin islahatlarda Hindistana müstəqillik verilməsi nəzərdə tutulmurdu. İngiltərə hökuməti eyni zamanda ənənəvi siyasətindən istifadə edir, milli azadlıq hərəkatını zəiflətmək üçün Hindistanın iki böyük icması – hindlilər və müsəlmanlar arasında nifaq salırdı.

İkinci Dünya müharibəsi başa çatdıqdan sonra İngiltərənin iqtisadi vəziyyəti pisləşmişdi. Müharibə böyük maliyyə borcları yaratmışdı. Müstəmləkələrin idarə olunması böyük xərclər tələb edirdi. Ona görə də İngiltərə hakim dairələri güzəşt etməyə məcbur qaldılar. **1947-ci ildə** İngiltərə Parlamenti Hindistanı iki hissəyə – Hindistana və Pakistana bölərək onlara müstəqillik verdi. Müstəqillik qazanılsa da, müxtəlif dini və etnik qruplar arasında münaqişələr baş qaldırırdı. M.Qandi müsəlman qaçqınlarına qarşı ədalətli davranılması üçün çağırışlar etdi. Onun bu mövqeyi 1948-ci ildə bir hind millətçisi tərəfindən öldürülməsinə səbəb oldu.

Tərəflər arasında münaqişə Kəşmir məsələsində daha da kəskinləşdi. Kəşmir Hindistanın şimalında yerləşən və əhalisi, əsasən, müsəlmanlardan ibarət olan bölgə idi. Müstəqillik əldə edildikdən dərhal sonra Hindistan və Pakistan Kəşmir uğrunda mübarizəyə başladılar. Müharibə 1949-cu ildə BMT-nin vasitəçiliyi nəticəsində atəşkəslə dayandırıldı. Kəşmirin üçdəbir hissəsi Pakistanın, qalan hissəsi isə Hindistanın nəzarətinə verildi. Lakin bu, münaqişəni tamamilə həll etmədi və tərəflər arasında ziddiyyətlər yenə də davam etdi.

kinci Dünya müharibəsindən sonra Yaxın Şərqdə siyasi vəziyyət tamamilə dəyişdi. Bölgədə ərəb xalqlarının azadlıq mübarizəsi nəticəsində bir-birinin ardınca müstəqil dövlətlər yarandı. 1947-ci ildə BMT Təhlükəsizlik Şurası Fələstinin iki hissəyə bölünərək burada Fələstin ərəb və İsrail yəhudi dövlətlərinin yaradılması haqqında qərar qəbul etdi. Qüds şəhəri isə beynəlxalq statusa malik olmalı idi.

Lakin ərəb ölkələri bu qərara qarşı çıxdılar. 1948-ci ildə İsrail dövlətinin yaradılması elan edildi. Buna cavab olaraq altı Ərəb dövləti (Misir, İraq, İordaniya, Livan, Səudiyyə Ərəbistanı və Suriya) İsrailə müharibə elan etdi. Lakin qüvvələr nisbəti, pis idarə edilməsi və İsrailə edilən xarici silah yardımı nəticəsində Ərəb qüvvələri məğlub oldu. Beləliklə, indiyə qədər də davam edən **Ərəb–İsrail münaqişəsinin** əsası qoyuldu. BMT-nin qərarı ilə yaradılmalı olan Fələstin dövlətinin əraziləri İsrail tərəfindən işğal edildi. Yüz minlərlə fələstinli öz yaşayış yerini tərk etməyə məcbur oldu. Onlar BMT-nin təşkil etdiyi qaçqın düşərgələrində məskunlaşdırıldılar.

İkinci Dünya müharibəsi dövründə Çində millətçilər və kommunistlər Yaponiyaya qarşı müharibə aparmaq üçün müvəqqəti olaraq birləşmişdilər. Onlar ölkənin şimal-qərbində möhkəmlənməkdə idilər. Burada kəndliləri yaponlara qarşı partizan müharibəsi aparmaq üçün səfərbər etdilər. Kommunistlərin təhsili inkişaf etdirmək və məhsul istehsalını artırmaq istiqamətində göstərdikləri fəaliyyəti onların burada nüfuzunu artırmışdı. 1945-ci ildə Şimali Çinin böyük hissəsi kommunistlərin nəzarətində idi. Bu zaman millətçi qüvvələr Çinin cənub-qərbində möhkəmlənirdilər. Müharibə illərində ABŞ yaponlara qarşı müharibə aparmaq üçün millətçilərə yardım göstərmişdi. Yaponiya təslim olduqdan sonra millətçilər və kommunistlər arasında vətəndaş müharibəsi yenidən başladı. 1945–1949-cu illəri əhatə edən müharibədə

kommunistlər qalib gəldi. Onlar torpaqların kəndlilərə verilməsi təbliğatından istifadə edərək əhalinin bu təbəqəsini öz tərəflərinə çəkə bildilər. Millətçilər məğlub olaraq ölkənin cənubuna çəkildilər. 1949-cu ildə kommunistlər bütün ölkəni ələ keçirərək Çin Xalq Respublikasının yaradıldığını elan etdilər. Millətçilər isə Tayvan adasına çəkilmək məcburiyyətində qaldılar.

Kommunistlərin qələbəsi, 1950-ci ildə Çin və SSRİ arasında dostluq müqaviləsinin imzalanması ABŞ-ın antikommunist fəaliyyətini gücləndirdi. Millətçilərin Tayvanda Çin Respublikası adlanan dövlət yaratmasına yardım etdi. Bir müddət BMT-də Çini bu dövlət təmsil etdi. SSRİ Çin Xalq Respublikasına iqtisadi, hərbi və texniki yardım göndərirdi. Çin və SSRİ arasında hücuma məruz qaldıqları təqdirdə bir-birlərinə kömək edəcəkləri haqqında saziş imzalanmışdır.

Ikinci Dünya müharibəsi Yaponiya üçün fəlakətlə nəticələndi. İki milyon yapon həlak oldu. Paytaxt Tokio da daxil olmaqla, ölkənin başlıca şəhərləri dağıdıldı. Atom bombası Hirosima və Naqasakini külə çevirdi. Məğlub olmuş Yaponiyada işğal rejimi yaradıldı.

Gələcəkdə yeni müharibənin qarşısını almaq üçün hərbsizləşdirmə həyata keçirildi və Yaponiya silahlı qüvvələri ləğv edildi. Demokratikləşmə prosesi başlandı. **1947-ci ildə** ABŞ siyasi məsləhətçiləri tərəfindən hazırlanan yeni Konstitusiya qüvvəyə mindi. İmperatorluq İngiltərə nümunəsində parlamentli monarxiyaya çevrildi. Konstitusiya yapon cəmiyyətində dərin dəyişikliklər yaratdı. Yapon dövlət ənənələrinə görə, imperator Tanrını təmsil edirdi. Onun iradəsi mütləq əmr hesab olunurdu. Yeni Konstitusiyada imperatorun siyasi gücü də əhəmiyyətli dərəcədə azaldıldı. Böyük Britaniya hökmdarı kimi imperator da yalnız simvolik funksiya daşımağa başladı. Yeni Konstitusiya Yaponiyada hakimiyyətin mənbəyinin xalq olduğunu təsbit etdi. Qadınlar da daxil olmaqla, bütün vətəndaşlara seçki hüququ verildi. Konstitusiya əsas insan hüquq və azadlıqlarının təminatçısı idi.

## 8.Soyuq müharibə dövrü.Müasir dövlətlərarası münasibətlər. Mədəniyyət

Polşa, Faşist bloku üzərində qələbədən sonra Qərb və SSRİ arasında ziddiyyətlər yenidən başlandı. Qərb faşist işğalından azad edilmiş Şərqi Avropa və Balkan ölkələrinin SSRİ-nin nüfuz dairəsinə daxil olmasını qəbul etmirdi. U.Çörçill 1946-cı ildə Fultonda (ABŞ) məşhur çıxışında ilk dəfə Avropanı bölən "dəmir pərdə" ifadəsini işlətdi. Bu, Soyuq müharibənin başlanğıcı oldu. SSRİ də atom bombasına malik olan ABŞ-a və onun müttəfiqlərinə qarşı ehtiyatla yanaşmağa başlamışdı. Almaniyanın taleyinin müəyyən edilməsi məsələsində tərəflər arasında fikir ayrılıqları yaranmışdı. Böyük İttifaqın son ortaq addımı 1947-ci ildə Almaniya və müttəfiqləri ilə sülh müqavilələri bağlamaq üçün keçirilən

konfrans oldu. Beləliklə, Qərbi Avropada 1937-ci ilə qədərki sərhədlər, əsasən, bərpa edildi.

Faşist bloku üzərində qələbədən sonra Qərb və SSRİ arasında ziddiyyətlər yenidən başlandı. Qərb faşist işğalından azad edilmiş Şərqi Avropa və Balkan ölkələrinin SSRİ-nin nüfuz dairəsinə daxil olmasını qəbul etmirdi. U.Çörçill 1946-cı ildə Fultonda (ABŞ) məşhur çıxışında ilk dəfə Avropanı bölən "dəmir pərdə" ifadəsini işlətdi. Bu, Soyuq müharibənin başlanğıcı oldu. SSRİ də atom bombasına malik olan ABŞ-a və onun müttəfiqlərinə qarşı ehtiyatla yanaşmağa başlamışdı. Almaniyanın taleyinin müəyyən edilməsi məsələsində tərəflər arasında fikir ayrılıqları yaranmışdı. Böyük İttifaqın son ortaq addımı 1947-ci ildə Almaniya və müttəfiqləri ilə sülh müqavilələri bağlamaq üçün keçirilən konfrans oldu. Beləliklə, Qərbi Avropada 1937-ci ilə qədərki sərhədlər, əsasən, bərpa edildi.

Avropada sülhü və iqtisadi əməkdaşlığı möhkəmləndirmək üçün sonralar – 1957-ci ildə **Avropa İqtisadi Birliyi** (indiki Avropa Birliyi) yaradıldı. ABŞ və Qərbi Avropa hərbi sahədə də təşkilatlandılar. 1949-cu ildə ABŞ, Kanada və Qərbi Avropanın bir sıra dövlətləri **Şimali Atlantika Müqaviləsi Təşkilatını (NATO)** yaratdılar.

1940-cı illərin ikinci yarısında Rumıniya, MacarıstanBolqarıstan və Çexoslovakiyada SSRİ-nin müdaxiləsi ilə sovet modelli rejimlər yaradıldı. Təkpartiyalı sistem, planlı iqtisadiyyat və milliləşdirmə tətbiq edildi. Bu dövlətlər SSRİ ilə hərbi-siyasi əməkdaşlığa məcbur olunurdu. Yalnız Yuqoslaviya bundan imtina edə bildi. 1949-cu ildə Marşall planına alternativ olaraq sosialist bloku ölkələri **Qarşılıqlı İqtisadi Yardım Şurası** (QİYŞ) yaradaraq Sovet İttifaqının yardımından istifadə etdilər. 1949-cu ildə Çində də kommunistlər hakimiyyətə gəldi və sovet tərəfdarları blokuna qoşuldular. Həmin ildə SSRİ-nin atom bombası hazırlamağa nail olması Sosialist blokunu daha da gücləndirdi.

Beləliklə, sosial-iqtisadi və ideoloji cəhətdən bir-birinə zidd sistemlərin yaranması dövlətlərarası münasibətləri kökündən dəyişdirdi. Qərb bloku kommunizmin yayılmasından, SSRİ isə blokadaya alınmasından çəkinirdi. Hər iki tərəfin atom bombasına malik olması müharibə baş verəcəyi halda dünyanın məhv ediləcəyi təhlükəsini yaradırdı.

1948-ci ildə Çexoslovakiyada kommunist çevrilişi ilə Şərqi Avropanın bütün ölkələri SSRİ-nin təsiri altına düşdü. Bu təsirin qərbə doğru yayılmasının qarşısını almaq üçün ABŞ və müttəfiqləri Almaniyanın öz nəzarətləri altında olan bölgələrində yeni alman dövləti yaratmağı qərara aldılar. Bu, Soyuq müharibənin ilk böhranına səbəb oldu. Buna cavab olaraq, 1948-ci ildə SSRİ Berlində Qərbin işğal zonalarını blokadaya aldı. ABŞ blokadada olan Qərbi Berlinə hava yolu vasitəsilə yardım edirdi. Məqsədinə nail ola bilməyən SSRİ 1949-cu ildə blokadanı aradan qaldırdı. Bu hadisə qərb işğal zonalarının birləşdirilərək **Almaniya Federativ Respublikasının** yaradılmasını sürətləndirdi. Buna isə SSRİ öz işğal zonasında **Almaniya**

**Demokratik Respublikasının** yaradılması ilə cavab verdi. Beləliklə, Almaniyanın parçalanması həm də dünyanın iki bloka ayrılmasının rəmzinə çevrildi.

Soyuq müharibənin ikinci böhranı Koreyada baş verdi. Müharibədən əvvəl Yaponiyanın hakimiyyəti altında olan Koreyanın şimalı 1945-ci ildə SSRİ, cənubu isə ABŞ tərəfindən işğal edilmişdi. Hər iki dövlətin arasında mövcud fikir ayrılığı Koreyanın da parçalanmasına səbəb oldu. 1948-ci ildə ABŞ-ın himayəsi altında **Koreya Respublikası,** şimalda isə kommunist rejimli dövlət yaradıldı. 1950-ci ildə **Şimali Koreya** qüvvələri Cənubi Koreyanı işğal etdi. BMT işğalı pislədi və üzv ölkələri Cənubi Koreyaya yardım etməyə çağırdı.

Bu dövrdə BMT-nin Təhlükəsizlik Şurasının üzvlüyünə kommunist Çinin deyil, Tayvanın qəbul edilməsinə etirazını bildirən SSRİ bu təşkilatı boykot etdiyi üçün verilmiş qərara qarşı çıxa bilmədi. Cənubi Koreyaya göndərilən BMT qüvvələrinin əsas hissəsini ABŞ qoşunu təşkil edirdi. Şimali Koreyaya SSRİ və Çin kömək edirdi. 1953-cü ildə Stalinin vəfatından sonra SSRİ-nin mövqeyi bir qədər yumşaldı. Soyuq müharibədə **"buzların əriməsi"** dövrü başladı. Nəticədə 1953-cü ildə Koreya müharibəsi başa çatdı. Lakin ölkə bir-birinə zidd siyasi sistemlərə malik dövlətlərə parçalanmış vəziyyətdə qaldı. ABŞ Cənub-Şərqi Asiya, Yaxın Şərqdə yeni hərbi ittifaqlarla SSRİ-nin ətrafında güclənməkdə davam edirdi. 1955-ci ildə SSRİ buna sosialist dövlətlərinin hərbi blokunun – **Varşava Müqaviləsi Təşkilatının** yaradılması ilə cavab verdi. Silahlanma və kosmosun fəthi sahələrində rəqabət davam edirdi. SSRİ 1957-ci ildə kosmosa ilk dəfə olaraq süni peyki göndərdi. Lakin 1959-cu ildə SSRİ-nin rəhbəri Nikita Xuruşşovun ABŞ-a səfəri və ABŞ-da Con Kennedinin hakimiyyətə gəlməsi münasibətlərdə mülayimləşmə yaratdı.

Regional müharibələr dünya sülhü üçün təhlükəli olduqda SSRİ və ABŞ diplomatik yolla münaqişələri həll etməyə çalışırdı. 1967 və 1973-cü illərdə **Ərəb–İsrail münaqişəsi** məhz belə dayandırılmışdı.

1979-cu ildə SSRİ Əfqanıstanı işğal etdi. SSRİ-nin məqsədi burada ABŞ-ın planları əsasında yayılmaqda olan siyasi islamçılığın öz ərazisinə – Mərkəzi Asiyanın müsəlman respublikalarına təsir etməsinin qarşısını almaq idi. Bu, Soyuq müharibənin yeni mərhələsinin başlanğıcı oldu. ABŞ SSRİ-yə taxıl və texnologiya ixracına embarqo qoydu, 1980-ci ildə Moskvada keçirilən Olimpiya oyunlarını boykot etdi. ABŞ yeni silahlanma proqramları hazırladı və bu sahədə SSRİ-ni ötüb-keçməyi qarşıya məqsəd qoydu. 1983-cü ildə sovet raketlərinin təhdidinə qarşı **Strateji müdafiə təşəbbüsü** proqramı elan edildi. Sovet raket təhlükəsini süni peyklərlə müəyyən edilərək kosmosdan məhv edilməsini nəzərdə tutan bu proqrama "Ulduz müharibəsi" də deyilirdi.

1980-ci illərin ikinci yarısında silahlanmaya çəkilən böyük xərclər, iqtisadi tənəzzül SSRİ-ni münasibətləri yumşaltmağa sövq edirdi. 1986-cı ildə Çernobıl Atom Stansiyasında baş verən qəza dünyada nüvə müharibəsi qorxusunu artırdı. 1987-ci ildə ABŞ və **SSRİ qısa və orta mənzilli nüvə silahlarının ləğvi** haqqında müqavilə imzaladı. Dünyanın müxtəlif bölgələrində öz təsirini

yaymaq üçün edilən müdaxilələr SSRİ-nin siyasi və iqtisadi vəziyyətini daha da ağırlaşdırırdı. 1989-cu ildə sovet qoşunları Əfqanıstandan çıxarıldı.

1989-cu il Soyuq müharibədə dönüş nöqtəsi oldu. Şərqi Avropada demokratikləşmə hərəkatı genişləndi. Polşada və Macarıstanda azad seçkilər keçirildi. Şərqi Almaniya rəhbərliyi Berlin divarının aradan qaldırılmasına icazə verdi. Çexoslovakiya, Bolqarıstan və Rumıniyada kommunist diktaturasına son qoyuldu. 1990-cı ildə Almaniya birləşdirildi. Artıq Şərqi Avropada “sovet modeli”nə son qoyulur, SSRİ “ilk müdafiə xətti”ni itirirdi. SSRİ-nin daxilində də müstəqillik uğrunda mübarizələr, etnik münaqişələr və millətçilik meyillərinin artması bu dövlətin süqutunu sürətləndirdi. 1991-ci ilin dekabrında SSRİ-nin varlığına son qoyuldu. Soyuq müharibə başa çatdı.